Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

18-20 APREL 2020-ci il
№ 60 (4191)
Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# QONDARMA «DQR»İ TANITMAQ ÜÇÜN ERMƏNİSTANIN YENİ OYUNU - «DQR»DƏ KORONAVİRUS ƏLEYHİNƏ BMT-dən YARDIM İSTƏNİLDİ...

■ səh. 8 ■

Virusla mübarizə tarixində Azərbaycanın daha bir ilki - gündəlik sağalanların sayı yoluxanları az qala iki dəfə üstələdi...

■ səh. 13 ■

Azərbaycanda pandemiyadan müxalifətin təqib olunmasında sui-istifadə siyasəti? - "Human Rights Watch" yenidən düşmən əllərində...

■ səh. 7 ■

Ermənistandan sülh prosesinə növbəti zərbə - "Artsax"ın müstəqilliyinə hər dəstəyi verəcəyik", dünya buna da susur...

■ səh. 8 ■

Koronavirus zərbəsi onsuz da zəif erməni ordusunu tam şəkildə sıradan çıxarmağa başladı

■ səh. 9 ■

Kreml "Qarabağ klanı" üçün hərəkətə keçdi - Köçəryanın müdafiəsi gündəmdə...

■ səh. 11 ■

Azərbaycanda 333 min imkansızın hər birinə 222 manat yardım - sayda 14 faiz artım var

■ səh. 15 ■

Yardıma görə özünü işsiz kimi qələmə verən 20 min vətəndaşın fırıldağı açıldı

■ səh. 14 ■

8103-ə 11 milyondan çox SMS-in 3,6 milyonu dəxlisiz çıxdı - vətəndaşların məlumatsızlığı, bəzilərinin dələduzluğa meylliyi, ya...

■ səh. 13 ■



■ səh. 2-3 ■

## Prezident nazirlərlə ilk daxili videokonfransda karantin rejiminin uzadılmasını zəruri saydı - İlham Əliyev qənaətini müstəsna məqamlarla əsaslandırdı...



Daxildən və xaricdən sadə azərbaycanlıların Prezidentə müraciətlərinin əsas bir neçə tezisi...

■ səh. 4 ■

Ermənistanla Azərbaycan «vahid iqtisadi məkanda?» - Avroittifaq Azərbaycan torpaqları qaytarılmadan planı həyata keçirəcəkmi...

■ səh. 10 ■




Pandemiya ilə mübarizədə Azərbaycan göstərdiyi bəşəri həmrəyliyə görə də regionda lider oldu

■ səh. 5 ■

■ səh. 12 ■

Ermənistan pensiyaların nağdsız ödənişinə hələ təzə keçmək istəyir, Azərbaycan isə - siz də müqayisə edin...



■ səh. 7 ■

Azərbaycanda partiyaların yeni qeydiyyat mərhələsi açıldı - yenidən qeydiyyatlar da olacaqmı...



■ səh. 10 ■

Separatçı rejimin qanunsuz seçki oyunu Ermənistanın daxili siyasi intriqalarının hansı əlamətlərini üzə çıxardı...



■ səh. 12 ■

İlin ilk üç ayında sosial-iqtisadi sahəyə kapital qoyuluşu artımının mənbələri - 2,9 milyard manat...



■ səh. 15 ■

Pandemiya ilə mübarizənin qaydaları Azərbaycanda ifrat toy və ya yas mərasimlərini birdəfəlik unutdura bilər



# Prezident nazirlərlə ilk daxili videokonfransda karantin rejiminin uzadılmasını zəruri saydı - İlham Əliyev qənaətini müstəsna məqamlarla əsaslandırdı...

**Aprelin 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında iclas keçirib.**

Prezident İlham Əliyev iclasda deyib:

- Aprelin 14-də birinci rübün yekunlarını müzakirə edərkən mən bir çox tapşırıqlar verdim. Təbii ki, bu tapşırıqların hamısı yerinə yetirilməlidir və siz tapşırıqların yerinə yetirilməsi ilə əlaqədar mənə müntəzəm olaraq məlumat verməlisiniz. Bu gün əlavə tapşırıqlar veriləcək, çünki pandemiya davam edir. Baxmayaraq ki, Azərbaycanda vəziyyət nəzarət altındadır, biz öz tədbirlərimizi vəziyyətə uyğun şəkildə görməliyik. Bizim üçün prioritet məsələ, - mən bunu qeyd etmişəm, bir daha demək istəyirəm, - insanların sağlamlığıdır, insanların həyatıdır və insanların sosial müdafiəsidir. Eyni zamanda, təbii ki, biz bu şəraitdə iqtisadi sahəyə də daha çox diqqət verməliyik. Çünki hər kəs bilməlidir, əgər güclü iqtisadi imkanlarımız olmasa, biz öz sosial siyasətimizi uğurla apara bilməyəcəyik, xüsusilə pandemiya dövründə ki, bu xəstəlik və bu xəstəlikdən yaranan fəsadlar böyük maliyyə vəsaiti tələb edir. Ona görə bir daha demək istəyirəm, bu pandemiya dövründə bizim üçün əsas prioritetlər insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır.

Hər kəs bilməlidir ki, bu böyük bəla bütün dünyanı böyük sınaq qarşısında qoyubdur. Bu günə qədər dünyada 140 mindən çox insan həyatını itirib və bu xəstəlik sərhədlər tanımır. Əgər ilkin mərhələdə bu xəstəlik Azərbaycana xaricdən gətirilibsə, hazırda daxili yoluxma prosesi gedir. Ancaq bildirməliyəm ki, sərt və qabaqlayıcı tədbirlər nəticəsində biz bu vəziyyəti nəzarət altında saxlaya bilirik. Son üç-dörd günün statistikası müəyyən mənada nikbinlik üçün əsas yaradır. Bildirməliyəm ki, son günlərdə yoluxanların sayı ilə sağalanların sayı arasında dinamika artıq müsbətdir. Yəni daha çox insan sağalır, nəinki bu xəstəliyə yoluxur.

Bunun başlıca səbəbi görülmüş tədbirlərdir. Mən bunu bir daha demək istəyirəm, əgər biz vaxtında qabaqlayıcı tədbirlər görməsəydik, bu gün Azərbaycanda xəstələrin sayı min yox, bəlkə on min, iyirmi min, bəlkə də daha çox olardı. Biz indi inkişaf etmiş ölkələrin təcrübəsini görürük. Bu ölkələrdə səhiyyə sistemi bir çox ölkələr üçün həmişə nümunə olub. Amma demək olar ki, böyük imkanlara malik ölkələrin səhiyyə sistemi böhran içindədir. Bu da təbiidir. Çünki xəstəliyin yayılma sürəti o qədər genişdir, xəstəlik o qədər tez yayılır ki, heç bir ölkənin səhiyyə sistemi buna davam gətirə bilməz, o cümlədən, Azərbaycanın. Ona görə bizim əsas məqsədimiz yoluxma hallarında müşahidə olunan artımın qabağını almaq idi, yoluxma zəncirini qırmaq idi. Görülmüş bütün tədbirlər bu məqsədi güdürdü ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq, vətəndaşlara kömək göstərək, onları bu bəladan qoruyaq və onların sosial müdafiəsini təmin edək. Bu günə qədər həm məhdudlaşdırıcı tədbirlərin görülməsi, bu tədbirlərin mərhələ-mərhələ sərtləşdirilməsi, eyni zamanda, pandemiyadan ziyan çəkmiş sahələrdə çalışan insanların sosial müdafiəsinin təmin edilməsi hesab edirəm ki, bizim düzgün siyasətimizi əks etdirir. Çünki bir daha demək istəyirəm ki, son üç-dörd gün ərzində müsbət dinamika var. Ancaq biz bundan sonra da vəziyyəti nəzarətdə saxlayacağıq, görək ki, bu dinamika nə qədər çəkəcək, bu, davamlıdır, yoxsa yox və hansı əlavə tədbirlər görülməlidir. Çünki dünya böyük çağırışla üzləşib və biz görürük ki, bir çox hallarda ölkələr bu bəla ilə təkbaşına mübarizə aparır.

Azərbaycan, əlbəttə, dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi bu sahədə həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə həmrəyliyin gücləndirilməsi üçün çox önəmli addımlar atmışdır. Deyə bilərəm ki, ölkəmizdə milli həmrəylik bu günə qədər müşahidə edilməyən dərəcədə artıb. Bu, bir daha bizim xalqımızın böyüklüyünü göstərir. Göstərir ki, biz xalq olaraq, dövlət olaraq çətin günlərdə maksimum həmrəylik nümayiş etdiririk, bir-birimizə kömək edirik, xüsusilə aztəminatlı ailələrə kömək göstəririk. Təbii ki, ilk növbədə, dövlət, eyni zamanda, sahibkarlar, ictimai təşkilatlar, ayrı-ayrı şəxslər - biz xalqımıza xas olan ən ülvi xüsusiyyətləri bir daha nümayiş etdiririk.

Bildiyiniz kimi, Azərbaycanın hazırda sədrlik etdiyi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası dünya miqyasında ilk təşkilat idi ki, Zirvə görüşünü videokonfrans şəklində keçirib. Bu Zirvə görüşü bir daha bizim həmrəyliyimizi, birliyimizi göstərmişdir. Göstərmişdir ki, biz ağır günlərdə bir-birimizin yanındayıq.

Son günlər ərzində mənə ünvanlanan minlərlə məktub göstərir ki, Azərbaycan xalqı dövlət tərəfindən görülmüş işlərə çox böyük qiymət verir. Əlbəttə ki, bu, bizi daha da ruhlandırır. Bu, onu göstərir ki, baxmayaraq insanların həyatı çətinləşib, normal həyata müdaxilə edən karantin rejimi bir çoxları üçün problemlər yaradıb, yenə də xalqımızın böyük əksəriyyəti bu vəziyyəti dərk edərək dövlətə öz dəstəyini göstərməkdədir. Biz isə bundan sonra da bu bəla ilə mübarizədə fəal olmalıyıq, qabaqlayıcı tədbirlər görməliyik və elə etməliyik ki, bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək.



Karantin rejiminə gəldikdə, bildiyiniz kimi, karantin rejimi aprelin 20-nə qədər nəzərdə tutulurdu. Ancaq mütəxəssislərin vahid fikrinə görə, karantin rejimi uzadılmalıdır. Mən hesab edirəm ki, bu, düzgün addım olacaqdır. Çünki müsbət dinamika hələ ki, ilk təzahürlərini göstərməkdədir. Biz bu dinamikanı dayanıqlı etməliyik. Ona görə hesab edirəm ki, Operativ Qərargah yaxın vaxtlarda bu məsələ ilə bağlı məlumat verəcək. Hesab edirəm ki, karantin rejiminin uzadılması yeganə düzgün qərardır.

Bunu nəzərə alaraq, biz əlbəttə ki, insanların sosial müdafiəsini daha da gücləndirməliyik. Azərbaycan xalqı yaxşı bilir ki, biz dərhal bu məsələ ilə ciddi məşğul olmağa başlamışıq. Pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən insanların əməkhaqlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən qarşılanır. Bu kateqoriyaya aid olan insanların sayı 300 mindən çoxdur. Eyni zamanda, 300 minə yaxın mikrosahibkarın maliyyə vəziyyətinin təmin edilməsi üçün dövlət böyük maliyyə vəsaiti ayırıb. Beləliklə, ancaq bu kateqoriyalara aid olan 600 minə yaxın insan dövlətdən maddi dəstək alır. Dövlət sektorunda işləyənlərin əməkhaqları tam ödənilir. Hazırda bir milyona yaxın insanın böyük əksəriyyəti işləmir, ancaq dövlət onların maaşını verir. Yəni bu, bir daha Azərbaycan dövlətinin humanist mahiyyətini göstərir. Onu göstərir ki, - mən bunu dəfələrlə demişəm, hələ koronavirusdan daha əvvəl demişəm, - bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bugünkü ağır vəziyyət bir daha onu göstərir ki, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur, nəyi bəyan ediriksə, onu da edirik.

Ancaq nəzərə alsaq ki, karantin rejimi uzadılacaq və karantin rejimindən çıxış da gərək bəri-başdan planlaşdırılsın. Sizə də bu məsələ ilə bağlı müvafiq göstərişlər verirəm ki, biz karantin rejimini mərhələli yollarla sərtləşdirmişdik və bu rejimi eyni qaydada - mərhələli yollarla yumşaltmalıyıq. Bu, hansı formada olacaq? Gərək bu məsələ üzərində hökumət və o cümlədən, nazirliklər işləsin, təkliflər versin. Yumşalma hansı sahələrdən başlamalıdır, biz indidən bunu planlaşdırmalıyıq. Çünki ümid edirəm, hətta uzadılmış karantin rejimi dövründə müəyyən yumşalma istisna deyil. Amma yenə də biz addımlarımızı vəziyyətə uyğun şəkildə atmalıyıq.

*(Ardı 3-cü səh.)*

(Əvvəli 2-ci səh.)

Əlbəttə, məni indiki vəziyyətlə bağlı ən çox narahat edən insanların sağlamlığıdır. Bizim həkimlərimiz insanlara kömək göstərmək üçün əllərindən gələni edirlər. Bildiyiniz kimi, bizim səhiyyə sistemimiz böyük sınaq qarşısındadır. Səhiyyə sistemimizin çökməməsi, ilk növbədə, onunla bağlıdır ki, biz xəstəliyin yayılma sürətini nəzarət altında saxlaya bildik. Əgər bu, nəzarətdən çıxsaydı, bizim səhiyyə sistemimiz buna davam gətirə bilməzdi. Bu gün inkişaf etmiş bəzi ölkələrin, - indi oradakı vəziyyət televiziya və internet resurslarında göstərilir, - insanları, ümumiyyətlə, müalicə etmək imkanı yoxdur. Bəzi xəstələr dəhlizlərdə yerləşdirilir, yerə uzadılır, uzanıblar yerlərdə və sadəcə olaraq, xəstəxana binasında qalırlar. Ən inkişaf etmiş ölkələrdə yüzlərlə, bəzi hallarda mindən çox insan vəfat edir. Nəyə görə? Sadəcə olaraq, səhiyyə sistemi buna davam gətirə bilmir, xəstəxanalarda yer yoxdur, bəzi hallarda lazım olan avadanlıq çatışmır. Əgər bu ölkələrin səhiyyə sistemi normal fəaliyyət göstərsəydi, o insanların böyük əksəriyyətinin həyatını xilas etmək olardı.

Bizim səhiyyə sistemimiz son illərdə böyük inkişaf yolu keçibdir və bu gün 20-dən çox dövlət xəstəxanasında koronavirus xəstələri müalicə olunur. Bu xəstəxanaların mütləq əksəriyyəti son 16 il ərzində tikilibdir. O cümlədən 575 çarpayılıq "Yeni klinika" bu gün ölkəmizin ən müasir səhiyyə ocağıdır və indi orada 100-dən çox xəstə müalicə alır. Eyni zamanda, Azərbaycan Tibb Universitetinin vaxtilə mənim təşəbbüsümlə tikilmiş Tədris-Terapevtik və Cərrahiyyə klinikalarında da bir çox xəstə müalicə alır. Son illər ərzində bölgələrdə inşa edilmiş mərkəzi rayon xəstəxanalarında bir çox xəstələr müalicə alır. O cümlədən bu ilin mart ayında Goranboy, Qazax, Şəmkir şəhərlərində açılan 3 yeni xəstəxanada xəstələr müalicə alır, orada da 500 çarpayı imkanı vardır. Yəni mindən çox çarpayı ancaq mart ayında istifadəyə verilibdir. Mənim göstərişimlə hazırda ölkəmizdə modul tipli 10 xəstəxana inşa edilməkdədir. Hesab edirəm ki, bu xəstəxanalar işə düşəndən sonra yaxın 1-2 ay ərzində orada da 2 min əlavə çarpayı istifadəyə veriləcək.

Yəni biz bütün hazırlıq işlərini görürük. Biz indi həkimlərimizin peşəkarlığını əyani şəkildə görürük. Sirr deyil ki, səhiyyə işçilərinin fəaliyyətinə bəzi hallarda tənqidi yanaşmalar da müşahidə olunurdu. Sanki Azərbaycanın səhiyyə sistemi bərbad vəziyyətdədir, Azərbaycanda xəstələrə lazımi müalicə göstərilmir, imkanlı xəstələr xaricə üz tuturlar. Bəli, belə hallar var, təkcə Azərbaycanda yox, bizdən qat-qat zəngin olan ölkələrdən də imkanlı adamlar Avropanın, Amerikanın aparıcı klinikalarında müalicə alırlar. Bu, dünya praktikasıdır. Ancaq bu gün biz yalnız öz imkanlarımıza arxalanırıq. Bizim səhiyyə sistemimiz ancaq Azərbaycan həkimləri tərəfindən dövlət dəstəyilə inkişaf edir. Bu gün Azərbaycanda ən mürəkkəb əməliyyatların keçirilməsi, koronavirusla bağlı müxtəlif müayinələrin aparılması, 18 laboratoriyamız - bütün bunlar bizim gücümüzü artırır. Yəni bu gün tam əmin ola bilərik ki, bizim səhiyyə imkanlarımız və həkimlərin peşəkarlığı lazımi səviyyədədir. Göstərdikləri fədakarlığa, qəhrəmanlığa görə həkimlərə bir daha təşəkkürümü bildirirəm. Ona görə mən tam əminəm ki, karantin rejiminin uzadılması nəticəsində biz müsbət dinamikanı gücləndirə bilərik.

Bununla əlaqədar, əlbəttə ki, biz aztəminatlı ailələrin problemlərini daha geniş şəkildə həll etməliyik. Bu günə qədər biz nəzərdə tuturduq ki, karantin rejimi aprelin 20-dək davam edəcək, ancaq indi uzadılacaq. Yardım üçün müraciət edənlərin sayı kifayət qədər artmışdır. İndi bu təkliflər, bu sifarişlər geniş təhlil olunur və maksimum şəffaflıq təmin edilməlidir. İlkin mərhələdə nəzərdə tutulurdu ki, 200 min insan dövlətdən 190 manat yardım alacaqdır. Mən hesab edirəm ki, ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayını biz 600 minə çatdırmalıyıq. Yəni 200 min əvəzinə, 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verməlidir. Bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda, koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlardır. Onların da problemlərini dövlət öz üzərinə götürür. Baxmayaraq, mən dəfələrlə onlara müraciət etmişəm ki, qeyri-formal məşğulluğa son qoyun, çünki bu, sizin üçün problem yaradacaq. Siz işsizlikdən sığorta, işsizlik müavinəti, pensiya, tibbi sığorta ala bilməyəcəksiniz. Son vaxtlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi və digər aidiyyəti qurumların fəaliyyəti nəticəsində on minlərlə yeni əmək müqaviləsi bağlanıldı. Mən ümid edirəm ki, bu ağır vəziyyətdən sonra bunu nəzərə alaraq bu gün hələ də kölgə iqtisadiyyatında çalışan insanlar da dərk edəcəklər ki, yeganə çıxış yolu kölgə iqtisadiyyatından çıxmaqdır. Sahibkarlara müraciət edirəm, qeyri-formal məşğulluğa son qoyun. İşçilərə müraciət edirəm bir daha, əmək müqaviləsi olmadan işləməyin, tələb edin. Əgər hansısa sahibkar sizinlə əmək müqaviləsi bağlamaq istəmirsə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, İqtisadiyyat Nazirliyinə, Prezident Administrasiyasına dərhal məlumat verin. Biz o sahibkarların dərsini verəcəyik. Çünki dövlətin bütün resurslarını səfərbər etdiyi indiki şəraitdə dövləti aldatmaq, vergilərdən yayınmaq və öz maddi marağını, öz tamahını təmin etmək xəyanətdir. Bunun başqa adı ola bilməz. Ona görə tapşırıq verirəm ki, aprel-may aylarında - iki ay ərzində 600 min insan dövlətdən ayda 190 manat alsın. Bu vəsaiti alacaq vətəndaşlardan xahiş edirəm ki, onlar ikinci ödənişi almaq üçün bank hesabları açsınlar. Birinci ödəniş bu ay veriləcək, ona görə yəqin bəzi insanların imkanı olmayacaq ki, bank hesabları açsınlar. Ancaq ikinci ödəniş may ayında veriləcək. O vaxta qədər bu 600 min insanın hər biri bank hesabı açsın və ikinci ödənişi bank köçürmə yolu ilə alsın. Bu, bizim xahişimizdir, bu, bizim tələbimizdir.

Ona görə bu məsələ ilə bağlı indi sizin nazirlik qarşısında çox ciddi vəzifələr durur. Siz qısa müddət ərzində bu ödənişləri təmin etməlisiniz.



# Nəsimidən olan şəhid anası Lətifə Novruzova pandemiyadan qurtuluş ümidlərilə Prezidentə belə yazdı...

**Bakının Nəsimi rayonunun şəhid anası Lətifə Novruzova ölkə başçısının rəhbərliyi və düzgün siyasəti sayəsində dünyanı vahiməyə salan pandemiya dövrünü tezliklə geridə qoyacağımıza əminlik ifadə edib.**

Prezident İlham Əliyevə ünvanladığı məktubunda o yazır:

Hazırda Yer kürəsinin 200-dən çox ölkəsinə yayılan COVID-19 pandemiyası ölkəmizdən də yan keçmədi. Lakin Sizin uzaqgörən siyasətinizin, hadisələri günün 24 saatı ərzində nəzarətdə saxlamağınızın nəticəsidir ki, Ümumdünya Səhiyyə Təşkilatının siyahısında Azərbaycan bu xəstəlikdən ölüm sayına görə sonuncu pillələrdədir.

Bu xəstəliyə düçar olmuş vətəndaşlarımızın Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə bütün səhiyyə ocaqlarında yaradılmış şəraitdən, tibb işçilərimizin xidmətlərindən razılığı bir daha onu göstərir ki, Sizin rəhbərliyiniz və düzgün siyasətiniz sayəsində biz tezliklə bu pandemiya dövrünü geridə qoyacağıq. Siz hər zaman vətəndaşların yanında olub onların sevincinə də, kədərinə də şərik çıxırsınız. Biz şəhid anaları da inanırıq ki, Sizin rəhbərliyinizlə bu çətin günlərdən alnıaçıq, üzüağ çıxacağıq.

Allah Sizi və xalqımızı bütün bəlalardan qorusun.

# Yevlaxlı ağsaqqal Knyaz Əliyev Prezidentə məktubunda məmurlardan da söz açdı

**Yevlax sakini Knyaz Əliyev Prezidentə göndərdiyi məktubunda dünyada tüğyan edən, bəşəriyyətin bəlasına çevrilən COVID-19 pandemiyasının hər kəs üçün böyük təhlükəyə çevrilməsindən söz açır, bildirir ki, ölkəmizdə virusla mübarizə işi çox uğurla həyata keçirilir:**

Dünyanın inkişaf etmiş ölkələri nə qədər çalışsalar da, həm yoluxmanın, həm də itkilərin qarşısını almaqda aciz qalıblar. Sizin rəhbərliyinizlə ölkəmizdə virusla mübarizə işi çox uğurla həyata keçirilir. Tarixində ilk dəfə belə xəstəliklə üzləşən gənc, müstəqil ölkəmizdə görülən tədbirlər nəticəsində yoluxma və ölüm hallarının sayı dünyanın elmi-texniki cəhətdən inkişaf etmiş ölkələrindən dəfələrlə aşağıdır.

Cənab Prezident, bu günlərdə modul tipli yeni xəstəxanaların tikilməsi haqqında imzaladığınız Sərəncam hər birimizin sevincinə səbəb oldu. Sizin rəhbərliyinizlə həyata keçirilən bu işlər vətəndaşlarımızın sağlam yaşamasına yönəlib. Hökumətin hər bir üzvü ona verilən tapşırığı dəqiq yerinə yetirir. Bütün bunlar Sizin uzaqgörənliklə həyata keçirdiyiniz uğurlu siyasətinizin məntiqi nəticəsidir.

Pandemiyanın ölkəmizdə yayılmasına qarşı atdığınız addımlara görə bir ağsaqqal kimi Yevlax sakinləri adından Sizə minnətdarlığımı bildirirəm. Allah Sizi qorusun. Var olun, cənab Prezident!

# Ağdamın Ayaq Qərvənd sakinləri Prezidentə "Düşmənlərimizi sevinməyə qoymursunuz" deyə yazdılar...

**Ağdam rayonunun Ayaq Qərvənd kəndindən Məmmədov Vaqif Zahid oğlu, Anafov Nüsrət Məhəmməd oğlu və Əliyeva Mehriban Mayıl qızının imzaladığı məktubda deyilir:**

Koronavirus pandemiyası bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da müəyyən çətinliklər yaradıb. Mövcud şəraitdə ölkəmizin səhiyyəsinin qənaətbəxş səviyyədə olmasına, iqtisadiyyatımızın dayanıqlılıq göstərməsinə görə Sizə minnətdarıq. Vətənimizin belə çətin günlərində düşmənlərimizi sevinməyə qoymursunuz.

Sizin tapşırıq və tövsiyələrinizə qulaq asan insanlarımız "Evdə qal!" çağırışına qoşulublar. Bununla yanaşı, belə bir şəraitdə dövlətimiz tərəfindən bizə göstərilən maddi və mənəvi dəstəyə görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Sizin dövlətimizi və xalqımızı belə çətin vəziyyətdən üzüağ çıxaracağınıza inanırıq. Uca Allah köməyiniz olsun.

# Daxildən və xaricdən sadə azərbaycanlıların Prezidentə müraciətlərinin əsas bir neçə tezisi...

**Prezident İlham Əliyevin ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması ilə bağlı gördüyü işlər xalqımız tərəfindən yüksək qiymətləndirilir. Bununla əlaqədar Prezidentə minnətdarlıq məktubları gəlməkdə davam edir.**



***Aydın Hüseynov:** "Ölkənin dayanıqlığını, gələcək inkişafını və vətəndaşların hazırkı dönəmdə sağlamlığını Prezidentin necə düşündüyü kiçik detalları ilə xalqa aydın olub"*

Bütün baş verənlər, Azərbaycanın koronavirusa qarşı apardığı mübarizə, qazanılan nəticələr təkcə ÜST, müxtəlif ölkələr tərəfindən müsbət qarşılanıb təqdir edilmir, bu prosesi sadə azərbaycanlılar da izləyir. Bu elə bir prosesdir ki, azərbaycanlılar təkcə bunu izləmirlər, həm də yaşayırlar, görürlər, öz həyatlarında hiss edirlər. Və təbii ki, həm də dəyərləndirirlər.

Əslində, bütün dünyada konkret məsələyə ən düzgün qiyməti sıravi vətəndaş verir və bu qiymətin nədən ibarət olduğunu sıravi insanların bu mübarizənin əsl müəllifi olan Prezident İlham Əliyevə ünvanladığı məktublardan aydın görmək olar. Ölkə daxilindən və xaricindən sadə vətəndaşların Prezidentə ünvanlanan dəstək məktublarında əsasən hansı ideyalar ifadə olunur?

Millət vəkili Aydın Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, sadə vətəndaşlardan gələn məktublar ölkə başçısının yürütdüyü siyasətə bəslənən məhəbbətin ən səmimi ifadəsidir:"Biz bilirik ki, ölkə başçısı bütün seçkilərdə xalqdan böyük dəstək alaraq Prezident seçilir. Ölkə vətəndaşlarının böyük əksəriyyətinin ona səs verməsi cənab İlham Əliyevin yürütdüyü siyasətin dəstəkləndiyi anlamına gəlir. Pandemiya kimi həssas dönəmdə isə Prezident xalqa bəslədiyi məhəbbətin ən bariz nümunəsini ortaya qoymuş oldu. Vətəndaş gördü ki, hətta ən ağır şəraitlərdə belə Prezident onların arxasındadır, onların vəziyyətini düşünür. İstər daxildə, istərsə də xaricdə yaşayan xalqımızın nümayəndələri gördülər ki, Prezident pandemiya ilə bağlı gərginliyin aradan qaldırılması istiqamətində əzmlə çalışır. Azərbaycan vətəndaşına məlum oldu ki, Prezident bütün addımları ölkə vətəndaşının sağlam qalması üçün atıb. Məhz buna görə də sadə vətəndaşlar öz hisslərini məktub vasitəsilə ifadə edirlər. Karantin rejiminin tətbiqi, pandemiya ilə bağlı yeni xəstəxanaların tikilməsi, sosial yardımların operativ şəkildə çatdırılmasına həmin məktublarda işarə olunur. Bunu doğru qəbul edilən qərarlar kimi dəyərləndirirlər. Hökumətin pandemiya ilə bağlı xüsusi dəstək proqramını qəbul etməsi də məktublarda xalqın maraqlarının ifadəsinə cavab verən nüans kimi qabardılır. Azərbaycanda görülən bu işlərin başqa dövlətlər üçün nümunə və təcrübə olduğuna dair də nəticələr çıxarmaq olur. Azərbaycan vətəndaşı qürur duyur ki, dövlətinin rəhbəri bütün məsələlərdə onun yanındadır. 2.5 milyard vəsaitin ayrılması Azərbaycan vətəndaşı, onun sağlamlığı üçündür. Həmçinin məktubalrdan bu nəticəyə gəlinir ki, Prezidentin atdığı addımlar yalnız pandemiya dönəmi deyil, postpandemiya zamanı üçün də nəzərdə tutulub. Ölkənin dayanıqlığını, gələcək inkişafını və vətəndaşların hazırkı dönəmdə sağlamlığını Prezidentin necə düşündüyü kiçik detalları ilə xalqa aydın olub. Məktubların çoxunu oxumuşam. Orda bir səmimiyyət, xalqla Prezidentin arasındakı vəhdəti gördüm. Artıq sadə xalq nümayəndələri arada heç bir vasitəçi olmadan belə ölkə başçısına öz duyğularını ifadə edə bilirlər. Bu olduqca sevindirici haldır".

***Məhəmmədəli QƏRİBLİ***

# Milli Məclisdən qondarma rejimin qondarma "seçkilər"ini susqunluqla qarşılayan AŞ PA-ya etiraz...




**Milli Məclis Ermənistanın Azərbaycanın işğal edilmiş ərazilərində keçirdiyi qondarma "seçkilər"ə münasibət bildirmədiyinə görə Avropa Şurası Parlament Assambleyasına (AŞ PA) etiraz məktubu göndərib.**

"Trend"in məlumatına görə, bunu Milli Məclisin sədri Sahibə Qafarova parlamentin aprelin 17-də keçirilən iclasında deyib. S.Qafarova bildirib ki, AŞ PA-nın bu qondarma "seçkilər"ə münasibət bildirməməsi təəssüf doğurur: "Mən son on il AŞPA-da Azərbaycan nümayəndə heyətinin üzvü olmuşam, həmin qurumun Büro üzvü və Komitə sədri kimi fəaliyyət göstərmişəm. Bu dövr ərzində mən və mənim hörmətli həmkarlarım bir çox hallarda qurumda ölkəmizə qarşı qərəzli münasibətin şahidi olmuşuq. Avropa Şurası Parlament Assambleyasında cəmləşmiş ermənipərəst dairələrin Azərbaycana böhtan atmaq, ölkəmizi nüfuzdan salmaq üçün saxta qətnamələr və qərarlar qəbul etmək, Azərbaycanı qaralamaq cəhdlərini dəfələrlə müşahidə etmişik. Mən deyərdim ki, bəzən təşkilatdakı anti-Azərbaycan, ermənipərəst qüvvələr ermənilərdən də artıq onların maraqlarını müdafiə ediblər. Bu gün isə Parlament Assambleyasının qondarma Dağlıq Qarabağdakı cinayətkar rejimin keçirdiyi saxta seçkilərə münasibət bildirməməsi, susqunluq nümayiş etdirməsi qəbulolunmazdır. Hesab edirəm ki, bu həm də beynəlxalq hüquqa qarşı çox böyük hörmətsizlikdir. Ona görə də biz AŞPA-nın bu davranışını qəti şəkildə pisləyirik və bununla əlaqədar Milli Məclis tərəfindən Avropa Şurası Parlament Assambleyasına etiraz məktubu göndərilmişdir".

Spiker, həmçinin, antimilli qüvvələri tənqid edib. O qeyd edib ki, həmin antimilli qüvvələr ermənilərin maraqlarına xidmət edirlər: "Azərbaycanda milli mənafedən, dövlətçilik maraqlarından çıxış edən bütün sağlam müxalifət partiyaları bu dialoqda iştirak edir, prosesə töhfə vermək üçün müvafiq addımlar atırlar. Çox təəssüf ki, hər zaman Azərbaycan dövlətçiliyinə, müstəqilliyimizə qarşı çıxış edən bəzi marginal qruplar bu dialoqdan imtina edib, xarici amilə bel bağlayıblar. Dövlətə qarşı düşmənçilik edən belə qrupların əsl məqsədi ölkəmizdə gərginlik yaratmaqdır. Özlərinə radikal müxalifət adını verən bu cür dağıdıcı qüvvələr hətta bütün bəşəriyyəti sarsıdan pandemiyadan və koronavirusdan belə öz məkrli niyyətlərini həyata keçirmək üçün istifadə etmək istəyirlər. Təbii ki, Azərbaycan cəmiyyəti, xalqımız bu cür davranışları görür və onların qeyri-sağlam, antimilli fəaliyyətini qətiyyətlə pisləyir. Azərbaycan xalqının mövqeyi bu yöndədir ki, ölkəmizdə yeni formalaşan siyasi konfiqurasiyada belə qüvvələrə yer yoxdur".

# Azərbaycanda daha 57 nəfər koronavirusa yoluxub, 68 nəfər isə müalicə olunaraq sağalıb



**Azərbaycan Respublikasında 57 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 68 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Trend"ə verilən məlumata görə, hazırkı dövrədək ölkəmizdə 1340 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 528 nəfəri müalicə olunaraq sağalıb, 15 nəfər vəfat edib, 797 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

**Həmin şəxslərdən 26 nəfərin vəziyyəti ağır, 35 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 86.607 test aparılıb.**

# Pandemiya ilə mübarizədə Azərbaycan göstərdiyi bəşəri həmrəyliyə görə də regionda lider oldu

*Bəhruz Quliyev: "Azərbaycan COVİD-19 pandemiyası ilə bağlı həyata keçirilən bəşəri mübarizəyə qoşulmaqla, bu mübarizəyə maddi-mənəvi dəstək verməklə..."*



**Bütün dünya koronavirus pandemiyası ilə mübarizə aparır. Bu gün elə dövlətlər var ki, pandemiyaya qalib gəlmək ərəfəsindədirlər, elələri də var, hələ heç bir irəliləyişə nail olmayıblar. Bəşəriyyəti bürüyən koronavirus pandemiyasının tamamilə məhv edilməsində, yer üzündən silinməsində müstəsna rol oynayan amillərdən biri dövlətlərin birliyi, həmrəyliyidir.**

Bu gün virusdan xilas edilməyin yolu, əlbəttə, bəşəri həmrəylikdən keçir. Pandemiyanın ilk dalğalarının yayılmağa başladığı ilk günlərdə Azərbaycan koronavirusa qarşı ümumbəşəri mübarizəyə ciddi maddi və mənəvi dəstək verməklə, bütövlükdə, bu prosesə qoşulmaqla ortaya çox ciddi nəticələr, nümunələr qoya bildi.

Məlumdur ki, öz daxilində pandemiya ilə ciddi mübarizə aparan dövlətlərin böyük əksəriyyətinin başı özünə qarışdığından, koronavirus pandemiyasına qarşı həyata keçirilən ümumbəşəri mübarizəyə qoşulmağa heç bir səy göstərmir. Uzağa getməyək, məsələn, Ermənistan kimi. Ermənistan nəinki koronavirusla ümumibəşəri mübarizəyə qoşulmur, hətta heç bir ölkəyə yardım belə təklif etmir. Əlbəttə, ömrü boyu o dövlətin, bu dövlətin verdiyi ianələrlə dolanan bir forpostun koronavirus pandemiyasına qarşı aparılam ümumibəşəri mübarizəyə qoşulmaması anlaşılandır. Bu mübarizəyə qoşulan dövlətin, ilk növbədə, iqtisadi gücü, humanizm, həmrəylik potensialı olmalıdır. O da ki, bu ölkədə yoxdur.

Onu da bildirək ki, Azərbaycan Cənubi Qafqaz respublikaları arasında göstərdiyi ümumbəşəri həmrəyliyə görə liderdir.

Qeyd etdiyimiz kimi, Azərbaycan dövləti isə pandemiyanın başlandığı ilk dövrlərdən başlayaraq pandemiyaya qarşı ümumbəşəri mübarizəyə qoşuldu, bununla da ümumbəşəri həmrəyik göstərdi. Bu gün Azərbaycanın pandemiya dövründə göstərdiyi ümumbəşəri həmrəylik nümunələri beynəlxalq qurumlar tərəfindən qeyd edilir, bir örnək kimi bütün dünyaya təqdim olunur. Dövlətimizin dünyanın ağır günündə ortaya qoyduğu ümumbəşəri həmrəylik nümunələri dünya tərəfindən təqdir edilir.

Onu da bildirək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin ortaya qoyduğu ümumbəşəri həmrəylik nümunələri ilə bağlı Prezidentin ünvanına təşəkkür məktubları gəlir.

Bildiyimiz kimi, pandemiyanın yayıldığı yeni dövrdə Ümumdünya Səhiyyə Təşkilatı göstərdiyi həmrəyliyə görə dövlətimizə ilk təşəkkür edən beynəlxalq qurum olub.

Aprelin 16-da isə Birləşmiş Millətlər Təşkilatı (BMT) həmrəyliyə görə Azərbaycana təşəkkür edib. Belə ki, BMT-nin Azərbaycandakı nümayəndəliyi Heydər Əliyev Mərkəzinə Azərbaycanın əsas memarlıq simvollarından birinin üzərində Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) bayrağının təsvir olunmasına görə dərin minnətdarlığını bildirib.

"Bu həmrəyliyi və dəstəyi yüksək qiymətləndiririk. Mübarizənin ön cəbhəsində olan Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) minlərlə əməkdaşı ilə birgə virusla mübarizə aparan üzv dövlətləri və onların cəmiyyətlərini, xüsusilə də bu pandemiyadan daha çox əziyyət çəkənləri, məsləhət, təlim, avadanlıq və həyati əhəmiyyət daşıyan xidmətlərlə dəstəkləyir.

ÜST və BMT-nin digər agentlikləri ölkədə COVID-19 pandemiyasının səbəb olduğu təcili problemləri həll etmək üçün Azərbaycan hökuməti və digər tərəfdaşlarla sıx əməkdaşlıq edirlər.

Azərbaycanın bu çətin sınaqdan alnıaçıq çıxmasına dəstək olmaq üçün əlimizdən gələni edəcəyik. Biz birlikdə daha güclüyük və birlikdə bu böhrana qalib gələcəyik" - deyə təşkilatın minnətdarlığında bildirilib.

Qeyd edək ki, koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizədə Azərbaycanın dəstəyini nümayiş etdirmək məqsədilə aprelin 16-da Heydər Əliyev Mərkəzinin binası üzərinə Ümumdünya Səhiyyə Təşkilatının bayrağı videoproyeksiya olunub.

Aprelin 3-dən başlayaraq virusdan zərər çəkən hər bir dövlətin bayrağı həmin ölkənin musiqisinin sədaları altında Mərkəzin binası üzərinə proyeksiya olunur. Bununla da Heydər Əliyev Mərkəzi COVID-19-un geniş yayıldığı dövlətlərə və onların xalqlarına dəstəyini, hörmət və ehtiramını ifadə edir.

İndiyədək Çin, Fransa, Almaniya, İran, İtaliya, Rusiya, İspaniya, Türkiyə, Böyük Britaniya, ABŞ, Gürcüstan, Avropa İttifaqı və Ümumdünya Səhiyyə Təşkilatının bayraqları Mərkəzin binasının üzərində nümayiş olunub.

Azərbaycan dövlətinə təşəkkür edən ölkələr sırasında Fransa, Almaniya və digər ölkələr də var.

Avropa İttifaqı da həmrəyliyə görə Azərbaycana təşəkkür etməyi unutmayıb. Belə ki, Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Kestutis Yankauskas həmrəyliyə görə ölkəmizə təşəkkür edib.

Azərbaycan dövlətinə, ölkəmizə göstərdiyi nəcib nümunələrə görə minnətdarlıq edənlərin çox qısa bir sırasını sizə təqdim etdik.

Pandemiya ilə mübarizədə Azərbaycanın göstərdiyi bəşəri həmrəyliyə görə də regionda lider olmasının təsadüfi olmadığını deyən "Səs" qəzeti və eyniadlı informasiya agentliyinin rəhbəri, politoloq Bəhruz Quliyevin bildirdiyinə görə, buna Azərbaycanın mövcud iqtisadi-siyasi, mənəvi gücü, eyni zamanda, beynəlxalq nüfuzu imkan verir ki, dövlətimiz bəşəri həmrəyliyə qoşulsun və bu sahəyə böyük töhfələr versin. "Bu gün bəşəriyyətlə COVID-19 pandemiyası arasında "soyuq müharibə"gedir. Müasir dünyaya "soyuq müharibə"nin şərtlərini COVID-19 diqtə edir. Ona görə də bu gün bütün dövlətlər, birliklər, güclər pandemiyaya qarşı mübarizədə birləşib. Sözsüz ki, bu dövlətlər sırasında Azərbaycanın xüsusi yeri var. Azərbaycan COVID-19 pandemiyası ilə bağlı həyata keçirilən bəşəri mübarizəyə qoşulmaqla, bu mübarizəyə maddi-mənəvi dəstək verməklə, bu sahədə həmrəylik göstərməklə, bir daha özünün real gücünü ortaya qoymuş oldu. Azərbaycan dövləti həm ölkə daxilini bu virusa geniş yoluxmadan qoruyur, həm insanların təhlükəsizliyini, rifahını təmin edir, həm bölgədə başqa ölkələrə dəstək göstərir, eyni zamanda da, bütövlükdə, bütün dünyaya həmrəylik göstərir. Azərbaycanın koronavirus pandemiyası ilə bağlı bəşəri mübarizəyə verdiyi ciddi dəstək, beynəlxalq aləmlə həmrəylik nümayiş etdirməsi ayrı-ayrı dövlətlər, beynəlxalq təşkilatlar tərəfindən təqdir edilir. Bunun nəticəsidir ki, bu gün müxtəlif beynəlxalq təşkilatlar, dövlətlər göstərdiyi bəşəri həmrəyliyə görə Azərbaycan dövlətinə, cənab Prezidentə təşəkkür məktubları ünvanlayırlar. Həqiqətən də Azərbaycanda həyata keçirilən mübarizə tədbirləri, yoluxmanın az olması, ölüm faizinin cüzilik təşkil etməsi, sagalanların isə yoluxanları üstələməsi beynəlxalq qurumların da gözündən qaçmır və onlar bu məqamları da vurğulayırlar. Cənubi Qafqazda lider dövlət olan Azərbaycanın pandemiyaya qarşı mübarizə metodu bir Azərbaycan modeli kimi öyrənilməkdədir. Bilirsiniz ki, cənab Prezidentin təşəbbüsü ilə bu günlərdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının onlayn iclası keçirildi. Məlumdur ki, Türk Şurasına Azərbaycan sədrlik edir. Türk Şurasının onlayn iclasında da bütün çıxışlar, fikirlər, müzakirələr COVID-19 pandemiyası ilə mübarizəyə yönəldi. Eyni zamanda, bütün türkdilli dövlətlərin də gəldiyi qənaət bu oldu ki, Azərbaycan bu prosesdə fərqli mübarizə üsulu ortaya qoyub, pandemiya ilə mübarizədə daha aktiv və fəaldır, yenilikçidir" - deyə bildirən B.Quliyev hesab edir ki, Azərbaycan dövləti, bütövlükdə, pandemiya ilə mübarizəyə ən çox töhfə verən dövlətlərdəndir. "Artıq beynəlxalq müşahidələr də göstərir ki, Azərbaycan dövləti bu sahədə nə qədər ciddi iş ortaya qoyub. Ölkəmizin pandemiya ilə mübarizədə gördüyü işlər, həyata keçirdiyi tədbirlər yalnız ölkəmizə deyil, bütövlükdə, qonşu ölkələrə də dividend gətirəbilər".

*"Bunun nəticəsidir ki, bu gün müxtəlif beynəlxalq təşkilatlar, dövlətlər göstərdiyi bəşəri həmrəyliyə görə Azərbaycan dövlətinə, cənab Prezidentə təşəkkür məktubları ünvanlayırlar"*

**B.Quliyev hesab edir ki, dövlətimizin bu istiqamətdə bəşəriyyətə verdiyi həmrəylik töhfəsinin bu gün Azərbaycanın bir dövlət kimi dünyada xüsusi yerə, nüfuza malik olmasını bir daha sübut edir.**

***İradə SARIYEVA***

# Əsl insan, alim və həkim ömrü

**Görkəmli alim 1983-cü ildə nəzəri və təcrübi təbabətdə qazandığı uğurlara, alınan elmi nəticələrin səhiyyə praktikasında geniş tətbiqinə, yüksəkixtisaslı tibb kadrlarının hazırlanması yolunda göstərdiyi xidmətlərə görə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilir. Bu sahədə də Zərifə xanım Əliyeva həqiqi üzv seçilmiş ilk alim-oftalmoloq idi.**

*(Əvvəli ötən saylarımızda)*

**Dəyərli əsərlərin müəllifi**

Akademikin elmi-tədqiqat işlərinin mövzu dairəsi çoxşaxəli və genişdir. O, görmə orqanlarının virusla zədələnməsinə, bu səpkidə aparılan müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr edib. Alimin "Herpetik göz xəstəliyi", "Ağır virus konyuktivitləri" və s. əsərləri bu qəbildəndir.

Zərifə Əliyevanın elmi tədqiqatlarının bir qismi görmə orqanının bədxassəli şişlərinin, qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərini əhatə edir. Onun "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün yaşla əlaqədar dəyişiklikləri və görmə-sinir yolları" adlı monoqrafiyaları və digər əsərləri göz xəstəliklərinin yaş xüsusiyyətlərinə, "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" və digər əsərləri isə daktriologiyaya həsr edilib. Dünya şöhrətli alimin qələmə aldığı fundamental "Terapevtik oftalmologiya", "Oftalmologiyanın aktual məsələləri", "İridodiaqnostikanın əsasları" və s. kitabları hər zaman oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları əsərlərdir.

Alim elm və texnologiyaların etikası və həkimlik deontologiyası haqqındakı zərif və saf düşüncələrini öz dəyərli əsərlərində təsbitləndirə bilib. Qələmə aldığı "Yüksək etimad" kitabı və bu mövzuya həsr etdiyi digər əsərləri həm bu gün, həm də gələcəkdə gənc həkimlərə düzgün yol göstərən, istiqamət verən, onların həkim, şəxsiyyət kimi formalaşmalarında ümdə əhəmiyyət kəsb edən əvəzsiz əsərlər olaraq qalacaq, aktuallığını heç vaxt itirməyəcək.

Zərifə Əliyeva çoxsaylı elmi əsərlərin, monoqrafiya, səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifidir. Akademik onlarla elmlər doktoru və elmlər namizədinin rəhbəri və məsləhətçisi olub, böyük bir elmi məktəb yaradıb.Görkəmli alim elmdə əldə etdiyi nailiyyətlərə, həkim-oftalmoloqların yetişdirilməsində göstərdiyi əvəzsiz xidmətlərə görə Azərbaycanın əməkdar elm xadimi fəxri adına layiq görülüb.



**Xoşbəxtlik formulu**

Bütün yüksək elmi titullarına, uzun illər boyu cəmiyyədə daşıdığı yüksək statusa rəğmən Zərifə xanım sadəliyi, təvazökarlığı həmişə qoruyurdu. O, insanlara təmənnəsiz yaxşılıqlar etməyi, kömək göstərməyi hər zaman özünə mənəvi borc bilirdi. Bu mənada Zərifə xanım Əliyeva elm üçün gözəl tədqiqatçı, ümummilli lider Heydər Əliyev üçün ləyaqətli ömür-gün yoldaşı, sadiq dost, silahdaş, övladları üçün qayğıkeş ana və nənə, həmvətənlərindən ötrü isə əsl insanlıq mücəssiməsi idi.

Ulu Öndər vaxtsız itirdiyi ömür-gün yoldaşını belə xatırlayırdı: "...Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib.

Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi...".

O, bütün ömrü boyu kamilliyə can atmışdı. Bu isə düşünən insan üçün ən vacib xüsusiyyətlərdəndir. Düşüncə kamilliyi bir qayda olaraq əxlaqla peşə dünyagörüşünün dialektik vəhdətindən yaranır. Zərifə xanımın yüksək intellektual mövqeyini şərtləndirən ən əsas məqamlardan biri də elə bundan ibarət idi.Bu nəcib insan tibbi praktikada daim əxlaqi dəyərlərə böyük üstünlük verir, bu dəyəri gənc yetirmələrinə də təlqin edirdi.

Zərifə xanım xarakterinin nəcib xüsusiyyətlərini böyüdüb tərbiyələndirdiyi övladlarına da aşılamışdı. 2013-cü ildə Zərifə xanım Əliyevanın 90 illik yubileyinə həsr olunmuş mərasimdəki çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev Zərifə xanımın böyük lider, ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı olaraq bütün işlərdə ona dayaq olduğunu, dəstəklədiyini xatırlatdı: "Ailəmizdə olan abhava, mühit, valideynlər arasında olan münasibətlər əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni, ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq. Əlbəttə, 1970-ci illərdə - Heydər Əliyev Azərbaycanda birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin - birinci katibin həyat yoldaşıdır... Zərifə xanım yüksək davranış meyarlarına malik idi. İnsanlara münasibətdə səmimiyyət, xeyirxahlıq, eyni zamanda, yüksək mədəniyyət, alicənablıq - bütün bu gözəl amillər onda birləşmişdi. Zərifə xanım əsl ziyalı idi, Azərbaycan xanımına xas olan bütün müsbət keyfiyyətləri özündə birləşdirmişdi, onları təcəssüm etdirirdi".

**Azərbaycan Prezidentinin qeyd etdiyi bütün bu xüsusiyyətləri, insanlara qayğını, başqalarına təmənnasız yaxşılıq hissini, xeyir əməllər sahibi olmağı bu gün həm cənab İlham Əliyevin fəaliyyətində, həm ölkəmizin Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın yerinə yetirdiyi missiyada, həm də onların övladlarının xoş əməllərində görmək çox qürurverici bir hissdir.**

Üç böyük tarixi şəxsiyyətin həyatında izi olan Zərifə xanım ən çox ailə və övlad dəyərləri ilə yaşadı. Bir də insanlara dünya işığı verən həkim sənətini zirvələrə ucaltdı. Görkəmli alimin irsi, arzu və idealları uğurla davam etdirilir.

*Əhliman*
***ƏMİRASLANOV***
*akademik,*
*SSRİ Dövlət mükafatı laureatı*

# Azərbaycanda pandemiyadan müxalifətin təqib olunmasında sui-istifadə siyasəti? - "Human Rights Watch" yenidən düşmən əllərində...

**"Human Rights Watch" (HRW) hüquq müdafiə təşkilatının bəyanatı yayılıb. Bəyanatda qeyd olunur ki, guya Azərbaycan hakimiyyəti koronavirusa qarşı mübarizə çərçivəsində tətbiq edilmiş məhdudiyyətlərdən sui-istifadə edir və hökuməti tənqid edənləri susdurmaq üçün müxalifət fəallarını həbs edir.**

*"Sözügedən təşkilat isə bundan çirkin siyasi məqsədlər üçün istifadə etməyə çalışır"*

***Vüqar Rəhimzadə:** "Ölkədə tətbiq olunan məhdudiyyətlər insanların həyatını qorumaq üçün edilir, kimisə təqib etmək üçün yox"*

İddia edilir ki, son həftələr ərzində ən az altı fəal və müxalif jurnalist saxta karantin rejimini pozmaq və ya polisə tabe olmamaq ittihamları ilə 10 gündən 30 günədək həbs edilib. Guya onların hamısı karantin mərkəzlərindəki şəraiti və ya hökumətin əhalinin həssas təbəqələrinə adekvat kompensasiya vermək iqtidarında olmamasını tənqid etdikdən sonra həbs edilib. Həbs edilənlər arasında hətta xroniki xəstəliyi olan övladını müalicə üçün xəstəxanaya aparan insanın da olduğu iddia edilir.

HRW-nin Avropa və Mərkəzi Asiya üzrə direktor müavini Georgi Qogiya bildirib ki, guya bu həbslər tamamilə Azərbaycanda köhnə siyasi qisas modelinə uyğundur.

HRW hesab edir ki, Azərbaycanda tətbiq edilmiş evdən çıxmaq üçün icazə sistemi yerdəyişmə azadlığını və şəxsi azadlığı həddindən artıq məhdudlaşdırır.

Onu da qeyd edək ki, Azərbaycan hökuməti bu kimi tənqidləri qəbul etmir və bunları qərəzli sayır. Rəsmi Bakı ölkədə karantin rejiminin tətbiqində ayrıseçkiliyə yol verilmədiyini bildirir və müxalif fəalların izlənərək həbs edilməsini dezinformasiya sayır.

O da məlumdur ki, sözügedən təşkilat zaman-zaman Azərbaycanla bağlı qərəzli və süni şəkildə mənfi rəy formalaşdırmağa cəhd göstərir. Ölkə barədə əsası olmayan, cəfəng xarakterli və qərəzli şəkildə mənfi rəy yaratma kampaniyası aparır. Heç şübhəsiz ki, təşkilatın məlum son bəyanatı da bu qəbildəndir.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, HRW-nin belə bir qərəzli bəyanatla çıxış etməsi təəccüblü deyil: "Ona görə ki, sözügedən təşkilat ancaq Azərbaycan hakimiyyətini qaralamaqla, əsassız ittihamlar irəli sürməklə məşğuldur. Neçə ildir biz bunu müşahidə edirik. Bunlar, faktiki olaraq, anormal düşüncəyə malikdirlər. Bütün dünyanı koronavirus cənginə alıb. Azərbaycanda sözügedən virusun fəsadlarını önləmək üçün ciddi işlər görülür. Sözügedən təşkilat isə bundan çirkin siyasi məqsədlər üçün istifadə etməyə çalışır. Azərbaycan hakimiyyətinin koronavirusa qarşı mübarizə çərçivəsində tətbiq edilmiş məhdudiyyətlərdən müxalifətə qarşı sui-istifadə etdiyi barədə deyilənlər böhtandır. Təşkilatın məqsədi, nəyin bahasına olursa-olsun, Azərbaycan barəsində mənfi rəy yaratmaqdır. Ona görə də ölkəmizə qarşı bu cür heç bir əsası olmayan ittihamlar səsləndirilir. Azərbaycanda tətbiq olunan məhdudiyyətlər insanların həyatını qorumaq üçün edilir, kimisə təqib etmək üçün yox. Ona görə də, birmənalı şəkildə, səslənən fikirləri rədd edirəm".




**Vidadi ORDAHALLI**

# Azərbaycanda partiyaların yeni qeydiyyat mərhələsi açıldı - yenidən qeydiyyatlar da olacaqmı...

**Azərbaycanda daha iki siyasi partiya qeydə alınıb. Verilən rəsmi məlumata görə, Azad Demokratlar Partiyasının və Yeni Zaman Partiyasının qeydiyyat ilə bağlı müraciətlərinə əsasən təqdim olunmuş təsis sənədlərinin qanunvericiliyə uyğunluğu məsələsi öyrənilib və onların dövlət qeydiyyatına alınması barədə qərar qəbul edilib.**



***Rəfail Becanov:** "Bu proses əsnasında partiyaların yenidən qeydiyyatı məsələsinə də baxıla bilər"*

Bununla bağlı aprel ayının 16-da Ədliyyə Nazirliyinin rəhbərliyi ilə qeydiyyata alınmış partiyaların sədrləri Sülhəddin Əkbər və Musa Ağayev arasında görüş keçirilib və onlara dövlət qeydiyyatı haqqında şəhadətnamələr təqdim edilib.

Qeyd edək ki, uzun zaman idi ölkədə yeni partiya qeydiyyata alınmırdı. Birdən-birə iki partiyanın qeydiyyata alınması bu baxımdan maraqlı göründü. Bu, siyasi partiyalarla bağlı qeydiyyat meyarlarına yenidən baxılacağı anlamına gələ bilərmi? Siyasi partiyaların qeydiyyata alınmasına hakimiyyətin yüksək ranqlı təmsilçiləri tərəfindən də qiymət verilib. Bu addım ölkəmizdə mövcud olan yeni siyasi münasibətlərin təzahürü kimi dəyərləndirilib. Milli Məclisin Hüquq komitəsinin sədri Əli Hüseynli Ədliyyə Nazirliyi tərəfindən yeni partiyaların qeydiyyata alınmasına münasibət bildirərkən deyib ki, bu çox müsbət haldır:"Hazırda fərqli siyasi baxışlarına baxmayaraq, milli dövlətçilik mənafeyindən, dövlət maraqlarından çıxış edən siyasi qüvvələrlə dialoq daha da dərinləşməkdədir. Altıncı çağırış Milli Məclisdə ilk dəfə olaraq, müxalifət partiyasını təmsil edən millət vəkili Milli Məclisin sədr müavini seçilib. Həmçinin, komitələrin sədr və sədr müavinləri sırasında müxalifət partiyalarının təmsilçiləri də yer alıb. Bütün bunlar həm də Azərbaycanda çoxpartiyalı sistemin təkmilləşdirilməsinə, siyasi sistemin yeni konfiqurasiyasının formalaşmasına xidmət edir. Yeni siyasi partiyaların qeydiyyata alınması isə ölkəmizdə siyasi sistemin daha da təkmilləşməsinə və münasibətlərin daha sağlam zəmində qurulmasına xidmət edəcək". Bu barədə müxalifət təmsilçiləri nə düşünür?

AXCP adına iddialı olan digər partiyanın funksioneri Rəfail Becanov "Bakı Xəbər"ə bildirdi ki, iki partiyanın qeydiyyata alınması iqtidarla müxalifət arasında yaranan yeni siyasi münasibət sistemini şərtləndirir:"Artıq məlumdur ki, siyasi qütblər arasında dialoq məsələsi gündəmdədir. Şəxsən Prezident bir neçə dəfə iqtidarla müxalifət arasında sağlam əməkdaşlığın olmasına zərurət olduğunu bildirib. Hiss edilir ki, ölkədə yeni siyasi sistem oturuşur. Əslində bu hamımızın istədiyi, ürəyindən olan mənzərədir. Biz bunu arzulayırdıq və iqtidar-müxalifət münasibətlərinin sağlamlığı ilə bağlı xarici təcrübədən misallar çəkirdik. İstəyirdik ki, ümumilli məsələrlə bağlı bizim iqtidarla müxalifət arasında da birlik olsun, fikir ayrılığı hökm sürməsin. Partiyaların qeydiyyata alınmasını dediyim prosesin davamı sayıram. Qeydiyyata alınan partiyalardan biri müxalif mövqeyi ilə tanınan Sülhəddin Əkbərin rəhbəri olduğu siyasi təsisatdır.

**Bu onu göstərir ki, iqtidar-müxalifət münasibətlərində yeni bir dönəmə start verilib. Bu təqdirəlayiq addımdır və cəmiyyətin ümumi inkişafına hesablanıb. Bu proses əsnasında partiyaların yenidən qeydiyyatı məsələsinə də baxıla bilər. Çünki qeydiyyatdan keçən elə partiyalar var ki, fəaliyyəti nəzərə çarpmır. Ancaq qeydiyyata alınmayan kifayət qədər fəal partiyalar da var. Bu proses həm də deyilən amili tənzimləmiş olar".**

***Məhəmmədəli QƏRİBLİ***

# Qondarma "DQR"i tanıtmaq üçün Ermənistanın yeni oyunu - "DQR"də koronavirus əleyhinə BMT-dən yardım istənildi...

**Bütün şüurlu həyatları boyu ianələr hesabına yaşayan ermənilər pandemiyadan da öz maraqları, daha doğrusu isə, təminatları üçün istifadə etməyə çalışırlar. Maraqlıdır ki, ermənilər bu işə separatçı qurumu da ayrıca qoşmağa çalışırlar. Yəni Ermənistanın öz dilənçiliyindən kənar olaraq, həm də separatçıların adından dünya birliyinə əl açıblar.**



## *Elşən Mustafayev: "İstər BMT, istərsə də ÜST separatçı rejimi məhz koronavirus dönəmində keçirdiyi "seçkiyə" görə sərt tənqid etməlidir"*

Separatçı qurumun "xarici işlər nazirliyi" BMT-nin baş katibi Antonio Quterreşə məktubla müraciət edib. Həmin məktubda bildirilir ki, güya ermənilər baş katibin 24 mart müraciətinə əməl etdikləri üçün atəşkəs rejiminə riayət edirlər. Bu xüsusda onlar qeyd edirlər ki, yaranmış konflikt səbəbindən izoliyasiyada qalıblar və koronavirusla bağlı vəziyyətləri acınacaqlıdır. Separatçılar bütün sadalananları əsas tutaraq BMT-dən xahiş edirlər ki, dünyanın humanitar təşkilatlarını , xüsusilə də Ümumdünya Səhiyyə Təşkilatını (ÜST) koronavirusla mübarizə üçün onlara yardım etməyə səsləsin.

Separatçıların koronavirusdan istifadə edərək növbəti saxtakarlığını necə dəyərləndirmək olar? Beynəlxalq məsələlər üzrə ekspert Elşən Mustafayev "Bakı-Xəbər"ə bildirdi ki, bu addımı da ermənilərin növbəti saxtakarlıqları sırasına əlavə etmək olar:

"Ermənilər daima çalışıblar ki, müxtəlif fırıldaqlarla həm Ermənistana, həm də separatçı rejimə ianələr alsınlar. Deyərdim ki, bu istiqamətdə bəzən səyləri alınıb da. Yəni dünyanı aldatmağa mahirdirlər. Bir müddət əvvəl ABŞ hökuməti Dağlıq Qarabağın inzibati ərazisində və işğal edilmiş ətraf rayonlarda neçə illərdir minaların təmizlənməsini həyata keçirən "Halo Trust" təşkilatının maliyyələşdirilməsini dayandırıb. Bundan dünya erməniləri, o cümlədən diaspor çox narahat olub. Ona görə ehtimal etmək olar ki, ermənilər bu istiqamətdə fəaliyyətlərini gücləndirmək üçün bundan sonra koronavirusdan isitifadə etməyə çalışırlar. Çünki minalardan təmizlənmə adı ilə separatçı quruma maliyyə cəlb edə bilmişdirlər. ABŞ-ın Ermənistandakı səfiri bu günlərdə keçirdiyi videokonfransda Qarabağa maliyyə yardımını kəsəcəkləri ilə bağlı məsələyə münasibət bildirərkən, Ermənistan istisna olmaqla, son 20 ildə işğal altındakı Dağlıq Qarabağa maliyyə yardımı ayıran yeganə ölkə olduqlarını xatırladıb. Bildirib ki, son 20 ildə HALO proqramı çərçivəsində Qarabağda minalanmış ərazilərin təmizlənməsi üçün ABŞ Dağlıq Qarabağa 17 milyon dollar məbləğində maliyyə yardımı göstərib. Artıq Ermənistana pandemiyaya qarşı mübarizə aparmaq məqsədilə yardımlar edilir. Şübhəsiz ki, ondan Qarabağdakı separatçı rejim üçün də ayırmalar olacaq. ABŞ Ermənistanın səhiyyə sisteminə 1,1 mln. ABŞ dolları ayırıb. Ancaq erməni diasporu ABŞ Dövlət Departamentindən Ermənistana koronavirusa görə 25 mln. ABŞ dolları ayrılmasını istəyib". Ekspertin sözlərinə görə, ermənilərin indi də atəşkəslə manipulyasiya etməsi biabırçılıqdır: "Onlar deyilən müddət ərzində atəşkəs rejiminə riayət etməyiblər. Statistikaya baxsanız, dəfələrlə atəşkəsi pozublar. Bundan əlavə, kornavirusa görə pul dilənən separatçı rejim, yaxşı olardı ki, pandemiya dönəmində keçirdiyi iki turdan ibarət saxta "seçkini" də nəzərdən keçirsin.

ÜST buna görə Ermənistana sanksiyalar tətbiq etməlidir, nəinki yardım. Bundan əlavə, separatçı qurum hazırda Azərbaycanın ərazilərində müvəqqəti qərar tutub. Onlara hansısa dövlətin, təşkilatın Azərbaycanın icazəsi olmadan yardım etməsi həm də beynəlxalq hüquq normalarına ziddir. Bu baxımdan da, ermənilərin yardımla bağlı saxta göz yaşlarına inanmamalıdırlar. İstər BMT, istərsə də ÜST separatçı rejimi məhz koronavirus dönəmində keçirdiyi "seçkiyə" görə sərt tənqid etməlidir, nəinki onlara dəstək verməlidir".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistandan sülh prosesinə növbəti zərbə - "Artsax"ın müstəqilliyinə hər dəstəyi verəcəyik", dünya buna da susur...

**Ermənistan Xarici İşlər Nazirliyi separatçı qurumda keçirilən "prezident seçkiləri" ilə bağlı bəyanat verib. Bəyanat başdan-ayağa beynəlxalq hüquq normalarına ziddir. Həmin bəyanatda qeyd edilib ki, Ermənistan "Artsax"ın öz müqəddəratı uğrunda mübarizəni sonadək dəstəkləyəcək:**

## *"Minsk Qrupu münaqişənin həllində maraqlı olsaydı, o zaman dərhal məlum məsələyə görə Ermənistana irad bildirərdi"*

"Artsax" xalqını, hakimiyyətini və siyasi qüvvələrini təbrik edirik. Tərəflərin birgə səyləri sayəsində 14 apreldə "Artsaxda" milli "seçkilər" prosesi uğurla başa çatdı. Demokratik və rəqabətli prosesin nəticəsi olaraq, "Artsax xalqı" yeni "prezident" və "parlament" üzvlərini seçdi".

Sözügedən bəyanatda o da qeyd edilir ki, Ermənistan sülh prosesində "Artsax xalqı"nı təmsil edən "orqanlarla" sıx əməkdaşlıq edəcək: "Ermənistan "Artsax xalqı"nın heç bir məhdudiyyət qoyulmadan öz müqəddəratını təyinetmə hüququnu ardıcıl şəkildə qoruyacaq".

Ermənistan XİN-in sözügedən bəyanatı bütün Qarabağ danışıqlarına zərbə vurur. Hansı ki, Ermənistan XİN-i məlum bəyanatı ilə bütün beynəlxalq qanunları pozur. Ancaq təəssüflər olsun ki, münaqişənin tənzimlənməsi ilə məşğul olan ATƏT-in Minsk Qurupu bütün bunları, sadəcə, seyr edir. Maraqlıdır, həmsədrlər belə pozucu bəyanata görə Ermənistana niyə irad tutmurlar?

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun fikrincə, həmsədrlər işğalçı tərəfi cilovlamaq istəmədikləri üçün belə biabırçı mövqe sərgiləyirlər: "Paşinyan əvvəl həyasızcasına bəyan edirdi ki, mən Qarabağdakı erməniləri təmsil etmirəm. Ona görə də onların adından danışa bilmərəm. Ermənistan özü rəsmən qondarma "DQR"i tanımayıb. Ancaq Paşinyan hakimiyyəti bir tərəfdən separatçıları danışıqlarda tərəf kimi görmək istəyir, o biri tərəfdən də belə bəyanatlarla çıxış edir.

## *Əli Orucov: "Həmsədrlər işğalçı tərəfi cilovlamaq istəmədikləri üçün belə biabırçı mövqe sərgiləyirlər"*




Bütün bu pozucu hərəkətlər ona hesablanıb ki, danışıqlar prosesi uzansın. Çünki onlar hesab edirlər ki, danışıqların uzanması onların xeyrinə işləyir. Hesab edirlər ki, yeni nəsil böyüyür və gedən proseslər vəziyyəti onların xeyrinə dəyişəcək. Ancaq beynəlxalq hüquq normaları və bir sıra nüfuzlu qurumların qətnamələri Azərbaycanın xeyrinədir.

Lakin qəribədir ki, ATƏT-in Minsk Qrupu bütün bunları və Ermənistan XİN-in son bəyanatını sükutla izləyir. Bütün bunlar onu deməyə əsas verir ki, həmsədrlər işğalçı tərəfi cəzalandırmaq istəmir. Nəinki cəzalandırmaq, heç cilovlamaq da istəmirlər. Həmsədrlər, sadəcə, mövcud status-kvonu qorumağa çalışırlar. Təki müharibə yenidən başlamasın. Həmsədrlər münaqişənin həllində maraqlı olsaydılar, o zaman dərhal məlum məsələyə görə Ermənistana irad bildirərdilər".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Koronavirus zərbəsi onsuz da zəif erməni ordusunu tam şəkildə sıradan çıxarmağa başladı

**Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həlli bu il də, belə görünür ki, mümkün olmayacaq. Əvvəla, dinc çözüm üçün tərəflər arasında təmaslar, deməkolar ki, tam dayanıb. Düzdür, buna təsir edən əsas amillərdən biri də koronavirus pandemiyasıdır.**

Amma digər tərəfdən o da faktdır ki, Ermənistan son addımları ilə də konfliktin sülh yolu ilə həllində heç də maraqlı tərəf kimi çıxış etmir. Hər halda, zəbt edilmiş ərazilərdə təşkil edilən qondarma "seçkilər" də bunun növbəti əyani təsdiqi oldu. Bunun nəticələri isə erməni tərəfi üçün artıq şok effekti yaradır.

Düzdür, işğalçı ölkənin təşkil etdiyi bu "seçkilər" hər hansı hüquqi qüvvəyə malik deyil. Elə bu səbəbdən qondarma "seçkilər" və onların nəticələrinin çoxsaylı beynəlxalq təşkilat və dövlətlər tərəfindən rədd edilməsi təsadüfi xarakter daşımadı. Yeri gəlmişkən qeyd edək ki, qondarma "seçkilər"lə bağlı beynəlxalq ictimaiyyətin üzvləri tərəfindən hələ də bəyanatlar verilməkdə davam edir və bu xüsusda Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi, ərazi bütövlüyünə dəstək ifadə olunur. Təbii ki, bütün bunlar diplomatik müstəvidə Ermənistan üçün ciddi məğlubiyyətdir. Amma Azərbaycan üçün əsas məqam ərazi bütövlüyünün bərpa olunmasıdır. Bunun üçün diplomatiya sahəsində müvafiq addım atılıb razılıq əldə olunmasa, Bakının güc yoluna əl atmaqdan başqa çarəsi qalmır. Hətta fikirlər səslənir ki, cari ildə yeni Qarabağ savaşına da start verilə bilər. Bunu Ermənistanda da etiraf edirlər. Məsələn, erməni politoloq Vigen Akobyan bildirir ki, indiki yaranmış vəziyyətdə bölgədə hərbi əməliyyatların ola biləcəyi istisna olunmur. O qeyd edir ki, Azərbaycan aktiv şəkildə buna hazırlıq görür. Lakin Ermənistanda bu sahədə vəziyyət fərqlidir. Belə ki, ordunun döyüş qabiliyyəti və təminatı sarıdan Ermənistan Azərbaycandan çox geridə qalır.

Digər tərəfdən, hələ aktiv müharibə getmədiyi halda erməni ordusu çoxsaylı itkilər verməkdə davam edir. Bunu Helsinki Vətəndaş Assambleyasının Vanadzordakı ofisinin 2020-ci ilin birinci rübündə Ermənistan ordusundakı itkilərlə bağlı məlumatı da təsdiq edir. Bildirilir ki, Ermənistan ordusu və işğal altında olan Dağlıq Qarabağdakı qanunsuz hərbi birləşmə bu ilin ilk 3 ayında 16 itki verib.

Ölüm hallarının 5-i intihar, 5-i bədbəxt hadisə, 4-ü sağlamlıq problemləri, 1-i atəşkəsin pozulması, 1-i isə avtomobil qəzası nəticəsində baş verib. Ermənistan tərəfinin yaydığı rəsmi məlumatlarda 12 itkinin olduğu açıqlanıb. Helsinki ofisi bəyan edib ki, 4 məlumatın 3-nü mediadan, 1-ni isə prokurorluqdan əldə edib. Ölənlərdən 5-i əsgər, 7-si müddətdən artıq həqiqi hərbi xidmət keçən, 4-ü isə zabitdir. Hesabatda qeyd olunur ki, bu göstəricilər 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 3 nəfər çoxdur: "2019-cu ilin müvafiq dövrü ilə müqayisədə intihar hallarının, sağlamlığa görə ölümlərin və qəza nəticəsində ölənlərin sayı artıb. Misal üçün, 2020-ci ilin birinci rübündə sağlamlığa görə 5 ölüm hadisəsi qeydə alınıb, ötən ilin birinci rübündə bu rəqəm 3 idi". Bundan başqa, orduda qanunsuzluq hallarının hələ də geniş vüsət almasının əsas problemlər sırasında qalmaqda davam etməsi də vurğulanır. Erməni siyasi ekspert Sarkis Artsruni qeyd edir ki, itkiləri müvafiq dövlət qurumları hər dəfə hansısa formada ört-basdır etməyə, standart cavab verməyə çalışır. Amma o vurğulayır ki, bu cür rəsmi şablon cavablar hətta ictimaiyyəti də iyrəndirib, üstəlik, insanlar dövlət orqanlarının baş verənlərə qeyri-adekvat qiymət verdiyinə qəzəblənir. Onun sözlərinə görə, insanlar Ermənistan ordusunda ölümcül olayların dayandırılması üçün əməli addımlar atılmadığından narazıdır:"Ermənistan baş prokuroru, Ermənstan müdafiə naziri silahlı qüvvələrdə cinayətkarlığın azaldığını bildirir ki, bu da baş nazir Nikol Paşinyanın "nikbin" qeydlər etməsi, faciəli hadisələrin bir-birini izləməsi üçün bir səbəbdir. Amma həqiqətdə orduda hələ də dinc dövrdə böyük itkilər olur".

Ekspert qeyd edib ki, cari ilin ilk üç ayında qeydə alınan rəqəmlər Ermənistan silahlı qüvvələrinin hələ də böyük problemlərinin olduğunu göstərir:"Ermənistan ordusuna və cəmiyyətimizə müharibə elan edilib, ancaq bu vəziyyətdə çağırış hüdudlardan kənarda deyil, içimizdən gəlir. Buna səbəb bir halda pis idarəetmə, amma digər hallarda cinayət laqeydliyi və ya səhlənkarlıq ola bilər. Ölkənin yüksək vəzifəli şəxslərinin faciəli hadisələrə cavabı, yumşaq desək, adekvat deyil. Baş nazir tərəfindən yüksək cavabdehlik tələb edilmədikdə, rütbələr sökülmədikdə və istefalar olmadıqda, bu ölümcül proseslərə görə əsas cavabdeh olmasına baxmayaraq, cinayət submədəniyyətindən danışılır". Artsruni qeyd edib ki, vəziyyət dəyişməsə, ordunun itkiləri artmaqda davam edəcək. Məhz belə bir vaxtda koronavirus pandemiyasının erməni ordusuna da ayaq açması vəziyyəti daha da pisləşdirir. Xatırladaq ki, Ermənistan Silahlı Qüvvələrində həm müqavilə ilə xidmət edən, həm də müddətli xidmət hərbi qulluqçuları arasında koronavirus infeksiyası halları qeydə alınıb. Ancaq yoluxma hallarının sayı açıqlanmır. Ermənistan Silahlı Qüvvələrin hərbi tibb idarəsinin rəisi, tibb xidməti polkovniki Sahak Ohanyanın sözlərinə görə, hazırda 6 hərbçi müalicəsini başa vurub və təkrar sınaqdan sonra hərbi xidmətə qayıdıb. Neçə nəfərin müalicəyə davam etdiyi bilinmir:"Bu barədə məlumat verməyi məqsədəuyğun hesab etmirəm". Erməni polkovnik bildirib ki, yoluxmuş insanların sayı Ermənistandakı ümumi sayla müqayisədə az sayıla bilər. Qeyd edək ki, Ermənistanda koronavirusa yoluxanların sayı 1.201-ə çatıb. Son sutkada ölkədə virusa 42 yoluxma halı qeydə alınıb. Məlumatlara görə, koronavirusdan daha 1 nəfər ölüb. Beləliklə, pandemiya qurbanlarının sayı 19-a yüksəlib. Orduda da yoluxanların sayı az deyil.

Sahak Ohanyan isə bu fonda onu da bildirir ki, təcrid edilmiş hərbçilərin sayı "müəyyən məxfilik" səbəbindən qeyd edilmir. Eyni zamanda, indiyə qədər edilən testlərin ümumi sayı da açıqlanmır. Bununla belə, Ohanyan 600 hərbçinin Amerika laboratoriyalarında, 165 hərbi qulluqçunun isə Ermənistan-Rusiya səyyar laboratoriyasında sınaqdan keçirildiyini söyləyib. Erməni polkovnik bildirib ki, həm müsbət, həm də mənfi cavablar var. Digər laboratoriyalarda edilən testlərin sayı göstərilmir. Ohanyanın sözlərinə görə, yoluxmuş hərbçilərin və onların təmasda olduqları şəxslərin sağlamlıq vəziyyəti hazırda qənaətbəxş qiymətləndirilir. Amma müstəqil mənbələr ordu sıralarında yoluxma hallarının çoxluğu səbəbindən məlumatların gizli saxlanıldığını bildirir. Xatırladaq ki, fevralın 25-dən etibarən Ermənistan Silahlı Qüvvələrin hərbi hissələrində çağırışçıların görüşü, kənara çıxması və məzuniyyətləri qadağan edilib. Lakin zabit heyəti və müqavilə əsasında xidmət edən əsgərlərin giriş-çıxışı məhdudlaşdırılmayıb. Bu isə orduda yoluxma hallarına şərait yaradan amillərdən biri sayılır. Ohanyanın sözlərinə görə, bu şəraitdə hazırda kazarma rejiminin elan edilməsinə ehtiyac yoxdur. Lakin ayrı-ayrı hərbi hissələrdə, istənilən halda kazarma rejimi tətbiq olunub.

Ermənistan ordusunda ilk yoluxma mənbəyi isə martın 25-də aşkarlanmışdı. COVID-19 sınağı nəticəsində 3 müqaviləli hərbi qulluqçuya koronavirus diaqnozu qoyulmuşdu. Təmasda olanlar təcrid olunmuş və ya özünətəcrid tətbiq edilmişdi. Martın 29-da yoluxanların sayının 5-ə, martın 30-da isə 6-ya çatdığı açıqlanmışdı. Təsdiqlənmiş yoluxma halları və onların sayı ilə bağlı daha sonra heç bir açıqlama verilməmişdi. Ohanyan həmin vaxt yoluxmuş insanların və təmasda olanların təcrid olunduğunu, qalan işçilərin kazarma rejiminə keçdiyini qeyd etmişdi. Amma buna rəğmən, orduda yoluxma hallarının artımı səbəbindən məlumatların gizli saxlandığı qeyd olunur. Eləcə də, Qarabağdakı erməni hərbçılər arasında da yoluxma geniş vüsət almaqdadır. Bu səbəbdən də Sahak Ohanyan aprelin 14-də işğal altında olan Qarabağda keçirilmiş qanunsuz "seçkilər"də hərbi qulluqçuların iştirakı ilə əlaqədar mümkün epidemioloji yayılmalar barədə fikir bildirməyib. Bununla yanaşı, o qeyd edib ki, Ermənistan Silahlı Qüvvələri virusa qarşı mübarizədə daha sayıq olmalıdır:

"Silahlı Qüvvələrin Hərbi Tibb İdarəsi Qarabağdakı hərbi birləşmənin tibbi xidmətini idarə edən rəhbər orqandır və Silahlı Qüvvələr üçün verilən bütün rəhbər göstərişlər, əmrlər Qarabağdakı hərbi birləşmədə də keçərlidir və qüvvədədir". Erməni mediası isə bu fonda diqqəti ona çəkir ki, Baş Qərargah rəisi Artak Davtyanın və müdafiə naziri David Tonoyanın əsgərlərdən mobil telefonların müsadirə olunması, valideynlərlə görüşlərin qadağan edilməsi, hərbi qulluqçuların ciddi müayinələrdən keçirilməsinə dair göstərişləri virusun erməni ordusunda sürətlə yayılmasını təsdiq edən amillərdəndir. Bu da koronavirusun orduda yayılma miqyasının təhlükəli səviyyəyə, ordunun döyüş hazırlığının zəifləməsinə gətirdiyini göstərir. Elə Ermənistan hakimiyyətinin ordunun döyüş potensialının azalmasından narahatlıq keçirdiyi üçün məlumatları məxfiləşdirdiyi də bu mənada təsadüf sayılmır. Təbii ki, belə ordunun da yeni Qarabağ savaşında Azərbaycan əsgəri qarşısında tab gətirməsi mümkünsüzdür.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənistanla Azərbaycan "vahid iqtisadi məkanda?" - Avroittifaq Azərbaycan torpaqları qaytarılmadan planı həyata keçirəcəkmi...

**Avropa Parlamenti Avropa İttifaqı (Aİ) və "Şərq tərəfdaşlığı" ölkələri arasında ümumi iqtisadi məkanın yaradılmasını təklif edib. Bu barədə məlumat yayan erməni mediası yazır ki, sözügedən məsələ Avropa Parlamentində hazırlanan hesabatda öz əksini tapıb.**

*"Aİ vahid iqtisadi məkan istəyirsə, o zaman işğalçı tərəfə təzyiq etməlidir"*

Sənəddə qeyd olunub ki, "Şərq tərəfdaşlığı"na üzv ölkələrlə ümumi iqtisadi məkanın yaradılması həmin ölkələrin Aİ-yə mərhələli şəkildə inteqrasiyasını nəzərdə tutur.

Hesabat yaxın həftələrdə Avropa Parlamentinin Xarici məsələlər üzrə komitəsində nəzərdən keçiriləcək. Erməni mediası iddia edir ki, guya bu təşəbbüs may ayında plenar sessiyada səsverməyə çıxarıla və iyun ayında keçiriləcək sammitdə təsdiqlənə bilər. Parlament üzvlərinin altı ölkənin - Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Belarus və Ukraynanın Aİ-nin energetika, nəqliyyat birliyi və vahid rəqəmsal bazarına mərhələli inteqarasiyasını dəstəkləyəcəkləri gözlənir.

O da qeyd edilir ki, bu sammitdə Aİ qonşularla bağlı yeni bir siyasət təsdiqləmək niyyətindədir. Ancaq koronavirus səbəbindən sammit ilin ikinci yarısına təxirə salına bilər.

O da məlumdur ki, Azərbaycan "Şərq tərəfdaşlığı" proqramında təmsil olunsa da, məlum səbəblərdən Ermənistanla heç bir iqtisadi münasibətlərə malik deyil. Nə qədər ki, Ermənistan işğala son qoymayıb, bu mümkün deyil. Belə olan halda, Azərbaycan Ermənnistanla birlikdə Aİ və "Şərq tərəfdaşlığı" ölkələri arasında ümumi iqtisadi məkanda necə təmsil oluna bilər? Yəni Azərbaycan Ermənistanla vahid iqtisadi məkanda necə ola bilər ki?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun fikrincə, Ermənistan işğala son qoymayana qədər belə bir vahid iqtisadi məkanda təmsil olunmaqdan söhbət gedə bilməz: "Bu, erməni mediasının növbəti təhrif olunmuş informasiyasıdır. Əlbəttə, belə bir iqtisadi məkanın yaradılması Ermənistan üçün əlverişli olardı. Çünki onların iqtisadiyyatı çox pis vəziyyətdədir. Koronavirus pandemiyasından sonra bu özünü daha qabarıq göstərir. Ancaq nə qədər ki, Ermənistan işğala son qoymayıb, Azərbaycanın

***Fikrət Sadıqov:** "Nə qədər ki, Ermənistan işğala son qoymayıb, Azərbaycanın belə bir vahid iqtisadi məkanda iştirakından söhbət gedə bilməz"*




belə bir vahid iqtisadi məkanda iştirakından söhbət gedə bilməz. Çünki bizim Ermənistanla heç bir iqtisadi əlaqələrimiz yoxdur və işğal davam etdiyi müddətdə bu ola da bilməz. Haçan torpaqlarımız işğaldan azad edilsə və Qarabağ məsələsi həll olunsa, o zaman iqtisadi əlaqələr ola bilər. Başqa bir tərəfdən, proseslər onu göstərir ki, Aİ məkanının özündə ciddi mənfi proseslər gedir. Hansı ölkəyə nə qədər köməklik göstərməklə bağlı qurum üzvləri bir araya gələ bilmirlər. Bununla belə, sərhədləri bağlayıblar. Yəni belə bir fors-major vəziyyətdə vahid məkan işləmir. Ona görə də Aİ vahid iqtisadi məkan istəyirsə, o zaman Ermənistana yürütdüyü işğalçılıq siyasəti ilə bağlı təzyiq etməlidir. Başqa cür mümkün deyil".

***Vidadi ORDAHALLI***

# Separatçı rejimin qanunsuz seçki oyunu Ermənistanın daxili siyasi intriqalarının hansı əlamətlərini üzə çıxardı...

**Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində yaradılan separatçı rejimə Araik Arutyunyan rəhbərlik edəcək. Qondarma qurum tərəfindən "prezident seçkilərinin ikinci turu" keçirilib. Baxmayaraq ki, beynəlxalq təşkilatlar, 120-dən çox ölkə hələ qondarma "seçkiləri" tanımadıqları barədə bəyanat vermişdi, separatçı rejim qanunsuz əməlini davam etdirərək, "seçkilərin ikinci turu"nu keçirib.**



Separatçıların yeni rəhbəri "seçilən" Arutyunyan daha əvvəl Qarabağda yaradılan qondarma qurumun "baş naziri" olub. Onun 88 faizlə Mailyana qalib gəldiyi bildirilir. Dağlıq Qarabağ dünyada yeganə bölgə olub ki, separatçılar, koronavirusun yayılmasına baxmayaraq, insanları təhlükə altına ataraq "seçki" keçirməyə qərar veriblər. Halbuki, seçkinin "ikinci turu" ərəfəsində Dağlıq Qarabağda onlarla virusa yoluxanlar var idi.

Görünən bu oldu ki, separatçıların artıq keçmiş lideri Bako Saakyan Araik Arutyunyanın xələfi seçilməsi üçün, nə yolla olursa-olsun, "ikinci turu" keçirməyə qərar verib. Həmçinin qeyd olunur ki, "seçkinin" təxirə salınması separatçılarla Ermənistan hakimiyyəti arasında suallar yarada bilərdi. Tamamən Ermənistandan asılı olan Dağlıq Qarabağ separatçıları "seçkini" keçirməklə İrəvanın da mövqeyini nəzərə alıblar. Qondarma qurumda keçirilən saxta "seçkilər" Ermənistanın daxili siyasi intriqalarına dair hansı mahiyyətləri üzə çıxardı? Prosesdən Paşinyan qalib çıxdı, yoxsa digərləri? Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, pandemiyanın geniş yayıldığı dönəmdə ermənilərin, saxta da olsa, iki tur "seçki" keçirməsi növbəti rusvayçılıq idi:

***Hatəm Cabbarlı:** "Bu seçim nə Ermənistanda, nə də qondarma qurumda formalaşan hərbi elitanın maraqlarına cavab verir"*

"Saxta "seçkiyə" bir neçə gün qalmış namizədlər seçkinin təxirə salınacağını anlayışla qarşılayacaqlarını desələr də, bu olmadı. Bako Saakyan "seçkinin" keçirilməsində israrlı olduğunu ortaya qoydu. "Seçkilərdə" Bako Saakyanın dəstəklədiyi Arutyunyan qalib gəldi. Ehtimal olunurdu ki, seçkilər başqa zamana keçiriləcəyi təqdirdə digər favorit namizəd Mailyan qalib gələcək. Arutyunyanın "prezidentliyini" seçilmək yox, təyinat adlandırmaq olar. Ermənistanla qondarma qurum arasında ziddiyyətin olmasına baxmayaraq, Nikol Paşinyan Arayik Arutyunyanı təbrik etdi. Maraqlıdır ki, ona sabiq prezident Serj Sarkisyan da dərhal təbrik ünvanladı. Paşinyan bu estafetdə Mailyanı dəstəkləyirdi. Bu nəticələr həm Ermənistanın daxilində, həm də İrəvanla Xankəndi arasındakı münasibətlərin gərginləşməsinə səbəb olacaq. Faktiki olaraq, Paşinyan bu prosesdən məğlub çıxdı. Separatçı rejimin başçısı Bako Saakyan aprelin 14-də ənənəvi "erməni-rus dostluğu əbədidir" deməklə "seçkidə" Moskvanı razı salacaq adamın "qalib olacağı" mesajını vermişdi. Nəticə də elə oldu. Hazırda Ermənistanda həbsdə olan, Xocalı soyqırımının törədilməsinə başçılıq etmiş Robert Koçaryandan başlayan bu zəncir qırılmadı və Araik Arutyuyan "prezident seçildi". Paşinyan fakt qarşısında qalıb. Arutyunyanla işləməyə məhkumdur. Hazırkı şəraitdə Paşinyan münasibətləri gərginləşdirməyi optimal variant kimi qəbul etmədi. "Seçkilər" dönəmində də Nikol Paşinyan hansı namizədi dəstəklədiyi ilə bağlı konkret fikir bildirmədi. Ancaq ümumi mənzərə bundan ibarət idi ki, Paşinyan Masis Mailyanın seçilməsində maraqlı idi. Arayik Arutyunyan oliqarxdır. Qondarma qurumda ən zəngin adamlardan sayılır. Onun Ermənistanla da biznes əlaqələri və maraqları var. Siyasətçi olmaqla yanaşı, həm də iş adamı olan Arutunyan üçün şəxsi maraqlar da önəm daşıyır. Bu baxımdan da onun Paşinyanla münasibətləri tam korlamayacağını təxmin edə bilərik. "Seçkilərdə" 45 faiz "seçicinin" iştirak etdiyi bildirilsə də, bu inandırıcı deyil. Belə pandemiya şəraitində sadə adamların qutu başına getməsi inandırıcı görünmür. Buna baxmayaraq, fakt budur ki, növbəti dönəmdə qondarma quruma Arayik Arutyunyan rəhbərlik edəcək. Bu seçim nə Ermənistanda, nə də qondarma qurumda formalaşan hərbi elitanın maraqlarına cavab verir. Həmin dairələr "parlaq" hərbi keçmişi olan Balasanyanın seçilməsini istəyirdilər. Onun göstəricisi 3-cü yer oldu. Hələlik Paşinyanla Arutunyan qısa dönəm üçün bir-biri ilə məcburi əməkdaşlıq etməyə məhkumdurlar".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanda "Qarabağ klanı"nın getdikcə daha çox sıxışdırılması onun əsas himayədarlarından biri sayılan Rusiyanı da narahat etməkdədir. Digər tərəfdən belə görünür ki, klan artıq Moskvanın İrəvana qarşı daha sərt addımlar atmasını da istəyir.**

# Kreml "Qarabağ klanı" üçün hərəkətə keçdi - Köçəryanın müdafiəsi gündəmdə...

Bunu Ermənistanın ikinci prezidenti Robert Köçəryanın ofisinin rəhbəri Viktor Soqomonyanın açıqlamaları da təsdiq edir. O, Nikol Paşinyan iqtidarının "Qarabağ klanı"na qarşı addımlarının Rusiya-Ermənistan münasibətlərinə ciddi zərbə vurduğunu qeyd edir. Xüsusən də Robert Köçəryan ətrafında baş verənlərin bu prosesi daha da sürətləndirdiyini vurğulayır:"Keçmiş prezident Robert Köçəryanın həbsi Ermənistan-Rusiya münasibətlərinə böyük təsir göstərir. Əlbəttə, hakimiyyət bunun belə olmadığını təsəvvür etməyə çalışır. Hətta bir neçə ay əvvəl Rusiyanın yüksək vəzifəli şəxslərindən birinin sözlərini təhrif etmək cəhdi olmuşdu, guya bu həbs Ermənistan-Rusiya münasibətlərinə təsir etməyəcək. Amma reallıq bunun əksini göstərir". Soqomoyan Köçəryanın ikitərəfli münasibətlərin pozulmasının tərəfdarı olmadığını bildirib:"Ümid edirəm ki, bu problemlər aradan qaldırılana qədər münasibətlər davam edəcək, amma bunun yaxın gələcəkdə davam edəcəyinə zəmanət verə bilmərəm. Köçəryanın qanunsuz həbsi uzadılsa, Ermənistan-Rusiya münasibətlərindəki problemlərin artması təsadüf olmayacaq".

Bunlara paralel olaraq, Paşinyanın "Qarabağ klanı"nın digər təmsilçisi olan sabiq prezident Serj Sarkisyanı həbs etmək niyyəti də, "İrates" qəzetinin yazdığına görə, Moskvada xoş qarşılanmayacaq:"Moskva bu şəxslərlə bağlı İrəvana müxtəlif formada xəbərdarlıqlar edib. Amma Paşinyanın geri çəkilməməsi Kremli daha çox qəzəbləndirir". Məhz belə bir vaxtda Serj Sarkisyanın aprel müharibəsi ilə əlaqədar parlamentdə dindirilməsinə start verilib. Onun bu məsələdə günahkar elan edilib həbs olunması gözlənilir. Eyni zamanda, Ermənistanın Apelyasiya Məhkəməsi də Serj Sarkisyanın vəkillərinin onun barəsində yaşayış yerini tərk etməmə haqqında qərarın ləğvinə dair vəsatətlərini rədd edib. Qeyd edək ki, Sarkisyan 1 milyon dollardan çox dövlət vəsaitini mənimsəməkdə ittiham olunur. Onun barəsində cinayət işi məhkəməyə göndərilib. Keçmiş prezidentin yaşayış yerini tərk etməməsinə dair qərar verilib.



"Qarabağ klanı"na qarşı atılan addımlar isə, yuxarıda qeyd olunduğu kimi, Rusiyada da xoş qarşılanmır. Moskvanın Ermənistana qarşı artıq iqtisadi müstəvidə təzyiq rıçaqlarını işə salmasının əsas səbəblərindən biri də məhz bununla izah olunur. "Qazprom Ermənistan"ın istehlakçılar üçün təbii qaz tariflərinə yenidən baxılmasını tələb edərək, bütün istehlakçılara vahid tarif, yəni min kubmetr üçün 283 dollar təklif etməsi də məhz bununla izah edilir. Artıq qiymətlə bağlı şirkət Ermənistan Dövlət Xidmətləri Tənzimləmə Komissiyasına müraciət edib. Mövcud tarif orta hesabla 255 dollardır. "Qazprom"un təklifi sosial cəhətdən aztəminatlı olanlar, müavinət alanlar üçün, istixanalar və kiçik təkrar emal şirkətləri üçün təxminən 35 faiz bahalaşmanı nəzərdə tutur. Ermənistan İctimai Xidmətləri Tənzimləmə Komissiyasının "Qazprom Ermənistan"ın müraciətinə baxması üçün 80 gün müddəti var. Ermənistan parlamentinin sədri Ararat Mirzoyanın sözlərinə görə, "Qazprom Ermənistan"ın iyulun 1-dən istehlakçılar üçün qazın qiymətinin artırılması ilə bağlı müraciəti yersizdir: "Fikrimcə, koronavirus pandemiyası "Qazprom" tərəfdaşlarımızı təklifin vaxtını yenidən nəzərdən keçirməyə məcbur etməli idi. Düşünmürəm ki, bu təklif üçün ən münasib vaxtdır. Problemlə çox tanış deyiləm, amma dəyərləndirməm belədir. Əminəm ki, hökumət tərəfdaşlarımız və rəsmilərimiz optimal çıxış yolu tapmaq üçün "Qazprom"la hər saniyədə danışıqlar aparır".

Ermənistanda siyasi qüvvələr hesab edir ki, tələb yerinə yetirilsə, bu, Ermənistan iqtisadiyyatına fəlakətli təsir göstərəcək. Amma indi dünya bazarında neftin və qazın qiymətinin düşdüyü bir vaxtda qazın qiymətinin Ermənistan üçün artırılması irəvana Moskva tərəfindən vurulan böyük zərbə kimi dəyərləndirilir. Ermənistanın "Aravot" nəşri yazır ki, bugünkü hökumət mühüm strateji sistemlərin Rusiyaya satılması qərarını miras olaraq əldə edib, lakin bu gün mövcud hökumət sonrakı Ermənistan-Rusiya danışıqlarının nəticəsi üçün cavabdeh olacaq:"Qeyd edilməlidir ki, qaz tariflərinə görə erməni-rus münasibətlərinə xələl gətirmək də eyni şəkildə perspektivsiz bir siyasət olar. Bütün bunlarla yanaşı, əlbəttə ki, bu gün Ermənistanın doğrudan da Rusiya siyasətinə tabe olmağının necə yarandığı tarixini unutmamalıyıq. 1997-ci ildən etibarən "ArmRosgazprom" qurulanda səhmlərin 45% -i Ermənistan şirkətinə, qalan 45% "Qazprom"a, 10% başqa bir Rusiya şirkəti olan "İtera" şirkətinə aid idi. "İtera" öz payını "Qazprom"a satdı. Ermənistan hökuməti də öz payını "Qazprom"a satdı. Bu proses ikinci prezident Robert Köçəryanın hakimiyyəti dövründən başladı. Xüsusilə, 2003-cü ildə Ermənistan və Rusiya, mübahisəli "Borc müqabilində əmlak" Borc Sazişi imzaladılar. Bu müqaviləyə əsasən Ermənistan bir sıra digər enerji və strateji obyektləri 100 milyon dollar borcu müqabilində Rusiyaya təhvil verildi. Yeri gəlmişkən, Robert Köçəryan bu razılaşmanı Ermənistan üçün ən uğurlu və gəlirli sazişlərdən biri hesab etdi. Köçəryanın sonrakı hakimiyyəti dövründə strateji əhəmiyyətli mühüm obyektlərin Rusiyaya təhvil verilməsi prosesi davam etdi. Beləliklə, 2005-ci ildə İran-Ermənistan qaz boru kəməri yeni inşa edilərkən Rusiya rəsmiləri Moskvanın strateji maraqlarına ciddi təhlükə yarada biləcəyini qeyd edərək, İranın Ermənistan üzərindən Avropaya qaz ixrac edə biləcəyindən narahatlıqlarını gizlətmirdilər. Belə olan halda Ermənistan hökuməti Rusiyaya daha bir güzəştə getdi.

Qaz boru kəmərinin İran hissəsində diametri 1,5 m olduğu halda, Ermənistan-İran sərhədindəki qaz kəmərinin diametri 715 mm-ə endirildi. Sonra bir neçə il ərzində "Qazprom" İran-Ermənistan qaz boru kəmərinin səhmlərini əldə etdi və onun yeganə sahibi oldu, Ermənistan isə öz ərazisi ilə Avropaya qaz nəql etmək imkanından məhrum oldu. Strateji enerji obyektləri ilə yanaşı, Robert Köçəryan digər obyektləri də Rusiyaya təhvil verdi. Hətta vəzifəsindən getmədən az əvvəl, 2008-ci ilin fevral ayında 30 il müddətinə Ermənistan Dəmir Yollarının güzəştli idarəetməsini Rusiyaya təhvil verdi". Nəşr yazır ki, məhz bütün bunların müqabilində Rusiya Köçəryanı sona qədər müdafiə edəcək. Paşinyanın əks addımları isə Kremli İrəvana qarşı daha qəzəbli addım atmağa sövq edəcək.

***Nahid SALAYEV***

**Məlum olduğu kimi, pandemiya ilə mübarizə apardığımız dövrdə də Azərbaycan dövləti ölkədə sosial-iqtisadi sahənin inkişafına xüsusu diqqət yetirir. Bu istiqamətdə çoxsaylı tədbir görülür, inkişafa təkan verən layihələr həyata keçirilir.**

# İlin ilk üç ayında sosial-iqtisadi sahəyə kapital qoyuluşu artımının mənbələri - 2,9 milyard manat...

***Əli Əlirzayev:** "Büdcədə nəzərdə tutulan investisiya layihələrinin yerinə yetirilməsi nəticəsində sosial-iqtisadi sahədə kapital qoyuluşunun həcmində artım baş verdi"*

***Ruslan Atakişiyev:** "Bunun əsas səbəbləri yanvar, fevral, mart aylarına kimi sırf iqtisadi sabitliyin mövcud olmasındadır"*

Dövlət Gömrük Komitəsinin hesabatına istinadən "Trend"in yaydığı məlumata görə, Azərbaycanda sosial-iqtisadi sahənin inkişafına kapital qoyuluşları artıb. Bu vəsaitlərin 69 faizi və ya 2,02 milyard manatı məhsul istehsalına, 21,1 faizi və ya 619,7 milyon manatı xidmət sahəsinə, 9,9 faizi və ya 288,7 milyon manat yaşayış evlərinin tikintisinə xərclənib.

Əsas kapitala yönəlmiş vəsaitin 58,2 faizi və ya 1,703 milyard manatını daxili fondlar təşkil edir. Vəsaitlərin 57,5 faizi və ya 1,684 milyard manatı birbaşa tikinti-montaj işlərinə xərclənib.

Kapital qoyuluşlarının ümumi həcmində müəssisə və təşkilatların payı 66,9 faiz, büdcə vəsaitlərinin payı 17,7 faiz, qeyri-büdcə vəsaitləri 8 faiz, özəl vəsaitlər 6,4 faiz, bank kreditləri 4,5 faiz, digər vəsaitlər 2,7 faiz təşkil edib.

Virusla mübarizə dövründə Azərbaycanda sosial-iqtisadi sahənin inkişafına kapital qoyuluşlarının artması nə ilə bağlıdır?

Tanınmış iqtisadçı, professor Əli Əlirzayev hesab edir ki, bu sahədə artımın müşahidə edilməsi pandemiya dövründə sosial-iqtisadi sahəyə xüsusi önəm verilməsi ilə bağlıdır: "Bilirsiniz ki, bu göstərici pandemiya dövrünün başlandığı ilk vaxtları əks etdirir. Büdcədə nəzərdə tutulan investisiya layihələrinin yerinə yetirilməsi nəticəsində sosial-iqtisadi sahədə kapital qoyuluşunun həcmində artım baş verdi. Bundan əlavə, bilirik ki, pandemiya dövründə də dövlət sosial-iqtisadi sahəyə xüsusi diqqət yetirdi. Bilirsiniz ki, sahibkarlara dəstək məqsədilə xüsusi vəsait ayrıldı, eyni zamanda da sosial sahədə maliyyə ayrımları baş verdi".



Ə.Əlirzayev hesab edir ki, pandemiya dövründə də Azərbaycanın sosial-iqtisadi həyatı inkişafdan qalmadı, əksinə, bu cür uğurlara nail oldu. Onun dediyinə görə, burada sosial sahənin payı daha çoxdur. Bu özünü daha çox maaşların artmasında, sahibkarlara yardım məsələsində, sosial sahədə maliyyə yardımlarının artırılması sahəsində baş verib. Sahibkarlara iş yerlərinin saxlanmasına görə verilən dəstək, bununla bağlı xüsusi proqramın işlənib hazırlanmasının bu məsələyə təsir etdiyini deyən Ə.Əlirzayev qeyd edir ki, sahibkarlar da dövlətin onlara göstərdiyi dəstəyə görə daha keyfiyyətli məhsullar istehsal edərək daxili bazarın tələbatını ödəməlidirlər.

Digər tanınmış iqtisadçı-ekspert Ruslan Atakişiyevin qənaətinə görə, iqtisadiyyatın inkişafı ilə bağlı olaraq bütün mənbələr hesabına əsas kapitala yönələn vəsaitin 2,9 milyard manat təşkil etməsi əsasən pandemiyaya qədərki dövrü əhatə edir. "Pandemiya dünyada 2019-cu ilin dekabrında başlasa da, Azərbaycanda iqtisadi sahələrin, biznes fəaliyyətinin məhdudlaşdırılması, karantin tədbirləri daha çox martın sonuna doğru tətbiq edilməyə başladı. Ona görə də yanvar, fevral, mart ayları imkan verirdi ki, iqtisadiyyata investisiya qoyulsun. 2020-ci ilin birinci rübündə ölkənin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan, Prezidentin yanında keçirilən müşavirədə bildirildiyi kimi, birinci rübdə büdcəyə qeyri-neft mənbələri hesabına 700 mindən çox əlavə vəsait daxil olub. Bunun əsas səbəbləri yanvar, fevral, mart aylarına kimi sırf iqtisadi sabitliyin mövcud olmasındadır" - deyə R.Quliyev vurğuladı.

***İradə SARIYEVA***

**Ermənistan parlamenti birinci oxunuşda pensiyaların nağdsız köçürülməsinə keçidi təklif edən dəyişiklikləri qəbul edib. Bu haqda məlumatı erməni mediası yayıb. Erməni mediasının yaydığı məlumata görə, indi nağdsız ödənişlər arasındakı seçimi vətəndaşların özləri edəcəklər.**

# Ermənistan pensiyaların nağdsız ödənişinə hələ təzə keçmək istəyir, Azərbaycan isə - siz də müqayisə edin...



Pensiyaçının sağlamlığında problem olduğu hallar istisna olmaqla, nağdsız ödənişlərə tamamilə keçmək təklif olunur.

Düzəliş İrəvan, Gümrü və Vanadzor şəhərlərində 1 iyul 2020-ci ildə qüvvəyə minəcək. Bundan sonra keçid tədricən digər yaşayış məntəqələrində tamamlanacaq və yalnız 2023-cü ilə qədər 1000 nəfərdən az adamın yaşadığı ərazilərdə fəaliyyət göstərəcək.

Populist çıxışlara görə tayı-bərabəri olmayan Nikol Paşinyan hələ də erməniləri, Ermənistan ictimaiyyətini vədlərlə aldadır. Blokada şəraitində olan, marginallaşmış bir dövlətin iqtisadi sıçrayışlar edəcəyini iddia etməyə erməni baş nazirindən başqa kimsədə üz ola bilməz. Sərhədlər açılmayınca, əlaqələr qurulmayınca, layihələr reallaşdırılmayınca, istehsal, emal olmayınca, hansı iqtisadi sıçrayışdan dəm vurduğunu Ermənistanın baş naziri heç özü də dərk etmir. Blokada şəraitində olan Ermənistanın iqtisadiyyatını irəli aparacaq nə qüvvə yoxdur, nə imkan, nə də potensial. İqtisadi inkişaf nağılları ilə ermənilərin başını aldadan Paşinyan hakimiyyəti hələ indi-indi pensiyaların nağdsız ödənişinə keçməyə hazırlaşır. Hansı ki, Azərbaycan neçə ildir pensiyaların nağdsız köçürülməsinə keçib.

***Ramil Hüseynov:** "Bu onu göstərir ki, Paşinyanın vəd etdiyi islahat nağılları sözdən o tərəfə keçmir"*

*"Monolit bir hökumət qura bilmədiyindən və ən əhəmiyyətlisi..."*

Məsələyə münasibət bildirən siyasi şərhçi Ramil Hüseynovun sözlərinə görə, bu onu göstərir ki, Ermənistan iqtisadi baxımdan yerində sayır: "Azərbaycan pensiyaların nağdsız köçürülməsi nə hardasa 16 il əvvəl keçib. Bu sahədə ötən illər ərzində digər mütərəqqi sistemlər tətbiq olunub. Ermənistan isə hələ indi buna keçir. Bu, onu göstərir ki, Paşinyanın vəd etdiyi islahat nağılları sözdən o tərəfə keçmir. Ermənistan Müstəqil Dövlətlər Birliyinə üzv olan dövlətlər arasında ən kasıb olan Qırğızıstan və Tacikistandan sonra 3-cü dövlətdir. Paşinyan hakimiyyətə gəldikdən sonra həyata keçirdiyi iqtisadi siyasətini dəyərləndirdikdə aydın olur ki, o, 3-cü yeri qoruyub saxlamaqda "israrlıdır". Paşinyan hökuməti ölkənin qarşılaşdığı sosial-iqtisadi problemləri həll etmək iqtidarında deyil. O daha çox hakimiyyət uğrunda siyasi mübarizə ilə məşğul olur. Keçmiş hakimiyyət təmsilçilərini təqib edir. Monolit bir hökumət qura bilmədiyindən və ən əhəmiyyətlisi, ölkənin iqtisadi potensialı buna imkan vermədiyindən, gözlənilən nəticələri əldə edə bilmir".

***Vidadi ORDAHALLI***

# Virusla mübarizə tarixində Azərbaycanın daha bir ilki - gündəlik sağalanların sayı yoluxanları az qala iki dəfə üstələdi...

**Ölkədə rəsmən elan edilən karantin rejiminin bitməsinə bir neçə gün qaldığı dövrdə ölkəmizdə koronavirus infeksiyasına yoluxma hallarının azalması müşahidə edilməkdədir. Azərbaycan dövlətinin virusa qarşı apardığı mütəşəkkil, davamlı, məqsədyönlü mübarizə üsulları, metodları bu virusun məhv edilməsinə yönəlib.**

***Paşa Qəlbinur:*** *"Həm dövlətin koronavirusla mübarizə sahəsində həyata keçirdiyi genişmiqyaslı tədbirlər, həm də insanların sosial izolyasiyaya kütləvi əməl etməsi..."*

***Adil Qeybulla:*** *"Bu azalma və sağalmanın yoluxma halını üstələməsi aprelin 20-dən sonra xüsusilə çox hiss ediləcək"*



Əldə olunan bütün nəticələr dövlətin həyata keçirdiyi çoxşaxəli tədbirlərlə bağlıdır. Aprelin 16-da Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, Azərbaycan Respublikasında 30 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 56 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Ümumiyyətlə, indiyə qədər 460 nəvər bu virusdan müalicə edilərək sağalıb.

Azərbaycanda ilk dəfə virusdan sağalmalar virusa yoluxmaları az qala iki dəfə üstələdi.

Bundan sonra pandemiya ilə bağlı Azərbaycanda vəziyyət necə olacaq? Mütəxəssislər faktı necə qiymətləndirir və ortada olan nəticələr hansı proqnozları söyləməyə imkan verir?

Tanınmış tibb alimi, professor Paşa Qəlbinur "Bakı-Xəbər"ə bildirdi ki, ortada olan nəticələr, eləcə də günü-gündən sağalma hallarının yoluxma hallarını üstələməsi pandemiyanın tez bir zamanda mıhv ediləcəyini deməyə əsas verir. "Bu gün koronavirusdan sağalmanın bu virusa yoluxma halını iki dəfə üstələməsi təsadüfi deyil. Bu fakt elə-belə, yedən yaranmayıb, ona doğru məqsədyönlü yol gəlinib. Yəni xəstəliyin ilkin qeydə alındığı gündən indiyə kimi bu nəticənin əldə olunması üçün böyük işlər görülüb. Bilirsiniz ki, dövlət səviyyəsində pandemiyaya qarşı çox mütəşəkkil mübarizə aparılır, virusa yoluxanların müalicəsi üçün dövlət olduqca böyük işlər görür. Hesab edirəm ki, virus tamamilə üzü aşağıya, azalmağa doğru gedir. Bir mütəxəssis kimi deyə bilərəm ki, koronavirusun bizə ikinci hücumu qətiyyən gözlənilmir. Bilirsiniz, qeyd etdiyim kimi, dövlət bu sahədə çox ciddi kompleks işlər görüb. Həm dövlətin koronavirusla mübarizə sahəsində həyata keçirdiyi genişmiqyaslı tədbirlərin, həm də insanların sosial izolyasiyaya kütləvi əməl etməsinin nəticəsində sağalmaların yoluxmanı iki dəfə üstələməsinə nail ola bildik. Bundan sonra biz sağalmanın 3 qat, 5 qat və s. artdığını da görəcəyik. Düzdür, vətəndaşlar arasında məsuliyyətsizliyə yol verənlər də oldu, amma bu, epizodik xarakter daşıyır. Bütövlükdə, dövlətin və xalqın həmrəyliyi yoluxma hallarının azalmasına gətirib çıxarıb".

P.Qəlbinur onu da qeyd etdi ki, virusun azalmasına təsir edən amillərdən biri də ölkəmizin təbii şəraiti, əlverişli iqlim qurşağında yerləşməsi və sahib olduğumuz genetik dayanıqlıqdır. Eyni zamanda, dövlət qayğısı ilə əhatə olunan Azərbaycan səhiyyəsinin gücü də virusun məhvə doğru yaxınlaşmasına təsir göstərib: "Əldə olunan nəticələr əminliklə onu deməyə əsas verir ki, Azərbaycan dünyada pandemiyadan ən az itki ilə çıxan dövlətlərin arasında birinci sırada dayanacaq. Azərbaycan pandemiyaya qalib gəlməyə doğru gedir".

Digər tanınmış tibb alimi, professor Adil Qeybulla da hesab edir ki, pandemiyanın sönməsinə az qalıb və Azərbaycan bu bəladan çox az zamanda xilas olacaq. "Koronavirusla bağlı əvvəlcədən proqnozlaşdırılan dinamika göz önündədir. Biz düşünürdük ki, aprel ayının ikinci yarısından enən dinamika görməliyik. Bu azalma və sağalmanın yoluxma halını üstələməsi aprelin 20-dən sonra xüsusilə çox hiss ediləcək. Əlbəttə, infeksiyanın yeni bir dalğası olmasa. Çünki bu prosesin ətrafında dünya üzrə aydın sezilən başqa maraqlar da var. Bütün bunlarla yanaşı, bizim əsas marağımız ölkənin milli maraqlarıdır ki, bu proses, virus mümkün qədər tez lokallaşsın, bundan az itkilərlə çıxaq. Bu baxımdan, karantin, sosial izolyasiya və dezinfeksiya tədbirlərinə ciddi əməl etmək vacibdir. Biz buna əməl etsək, bizdə əhali sıxlığı da çox deyil, bu baxımdan biz daha az itkilərlə pandemiyadan çıxa bilərik. Hələlik proses düşündüyümüz istiqamətdə gedir. Aprelin 20-dən sonra dinamikanı şərh etsək yaxşı olardı" - deyə A.Qeybulla bildirdi.

***İradə SARIYEVA***

# 8103-ə 11 milyondan çox SMS-in 3,6 milyonu dəxlisiz çıxdı - vətəndaşların məlumatsızlığı, bəzilərinin dələduzluğa meylliyi, ya...

**Məlum olduğu kimi, aprelin 5-dən Azərbaycanda vətəndaşların evdən çıxması icazə əsasında həyata keçirilir. Artıq insanlar yaşayış yerini tərk etmək üçün icazə almaq məqsədilə 8103 nömrəsinə SMS göndərməlidirlər.**




***Aytəkin Kamranqızı:*** *"Yalan SMS göndərənlərin əksəriyyəti dələduzluqla məşğul olan şəxslərdir"*

Açıqlanan son statistik rəqəmlərə əsasən, evdən çıxmaq istədiklərinə dair vətəndaşlar tərəfindən icazə əldə etmək üçün 8103 qısa nömrəsinə 11 milyon 316 min SMS göndərilib.

Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri Elnur Nifteliyev media nümayəndələrinə açıqlamasında qeyd edib ki, SMS-lərdən təqribən 3 milyon 668 mini, yəni 32 faizi aidiyyəti olmayan məzmunla bağlı göndərildiyindən, təsdiq cavabı almayıb.

Maraqlıdır, vətəndaşların 32 faizinin aidiyyəti olmayan məzmunla SMS göndərməsi onların bu mözvu ilə bağlı məlumatsız olması ilə bağlıdır, yoxsa o şəxslər, sadəcə, dələduzluğa meyllidirlər.

Sosioloq Aytəkin Kamranqızı bildirdi ki, hazırda vətəndaşlar SMS göndərərək evdən çıxmaq üçün icazə alırlar.

*"SMS vasitəsilə evdən çıxmağa icazə almaq istəyən şəxs konkret səbəb göstərməli və mütləq iki saat ərzində evə qayıtmalıdır"*

"Bu xidmətin tətbiqi ümumi nəzarət baxımından vacib məqamdır. SMS vasitəsilə evdən çıxmağa icazə almaq istəyən şəxs konkret səbəb göstərməli və mütləq iki saat ərzində evə qayıtmalıdır. Təəssüf ki, bəzi şəxslər evdən çıxmaq üçün dəfn adından istifadə edirlər. Ancaq elə şəxslər var ki, onlar aidiyyəti olmayan SMS-lər göndərirlər.

Təbii ki, yalan SMS göndərənlər xüsusi karantin rejimini pozduqlarına görə cərimələnirlər və bundan sonra da təkrarlama halları olarsa, həmin şəxslər barəsində qanunvericiliyə uyğun olaraq digər tədbirlər görülməkdə davam edəcək. Yalan SMS göndərənlərin əksəriyyəti dələduzluqla məşğul olan şəxslərdir. Həmin şəxslərin müəyyən olunaraq cəzalandırılması vacibdir".

***Günel CƏLİLOVA***

**Koronavirusun yarada biləcəyi təhlükənin önlənməsi üçün dünya dövlətlərinin böyük əksəriyyəti iqtisadi fəaliyyəti məhdudlaşdırıb. Yaranmış durumda Beynəlxalq Valyuta Fondu koronavirusla əlaqədar yaşanan iqtisadi durğunluğa görə bu il üçün nəzərdə tutduğu iqtisadi proqnozlarında dəyişiklik edib.**

# Tranzit strategiyası Azərbaycana pandemiya dövründə mühüm üstünlüklər qazandırır



Qurumun baş iqtisadçısı Gita Gopinat məsələ ilə bağlı qeyd edir:"Bu il dünya iqtisadiyyatı Böyük Böhrandan bəri ən pis durğunluq dövrünü yaşayacaq və bu böhran on il əvvəl baş verən maliyyə böhranından daha təsirli olacaq. Mövcud böhran sadəcə iqtisadiyyatla bağlı yürüdülən siyasətlə bağlı deyil. Bu böhran fərqli olduğundan, onun şərtləri də nə zaman bitəcəyi bəlli olmayan pandemiya tərəfindən müəyyənləşdirilir".

"Standard & Poor's" beynəlxalq reytinq agentliyi elə bu səbəbdən dünya üzrə ümumi daxili məhsulun 2020-ci ildə 2.4 faiz azalacağını proqnozlaşdırır: "COVID-19-un iqtisadi nəticələri uzanır və gözləniləndən daha çox intensivləşir, makroiqtisadi proqnozlarımızı yenidən endirdik. Bu il dünya ÜDM-in 2,4 faiz azalacağını proqnozlaşdırırıq, ABŞ və Avrozona iqtisadiyyatları isə müvafiq olaraq 5,2 və 7,3 faiz azalacaq". Beləliklə, qeyd edilənlərdən bəlli olur ki, pandemiya dünya, eləcə də ayrı-ayrı ölkələrin iqtisadi durumuna mənfi istiqamətdən təsir göstərməkdə davam edir. Amma bu təsirin dövlətlərə zərər dərəcəsi də fərqlidir. Məsələn, aparılan hesablamalar göstərir ki, Azərbaycan pandemiyadan daha az zərər görənlər sırasında yer alacaq. Ölkəmizə əsas mənfi təsir pandemiyanın enerji resurslarının qiymətində ciddi enişə səbəb olması ilə bağlıdır. Amma digər tərəfdən görünən həm də odur ki, Azərbaycan qeyri-neft sektorunda gördüyü işlərlə də bu sahədə itkilərini kompensasiya edə biləcək. Məsələn, pandemiyaya rəğmən nəqliyyat, tranzit yükdaşımalardan Azərbaycanın cari ildə daha çox gəlir əldə etməsi gözlənilir. Bunun üçün Azərbaycan həm də daha sərfəli şərtlər təqdim etməyə hazırlaşır. Belə ki, koronavirus pandemiyasının yayılması şəraitində dövlətlərarası yükdaşımaların sadələşdirilməsi istiqamətində Azərbaycan müvafiq təkliflər hazırlayır. TRACECA Hökumətlərarası Komissiyasının Azərbaycan üzrə milli katibi Akif Mustafayev bu xüsusda bildirib ki, təkliflər bütün dövlətlərə göndəriləcək: "Hazırladığımız təkliflər pandemiya şəraitində dövlətlərarası sərhəd-gömrük məntəqələrində həmin dövlətlərin daxili işlərinə qarışmadan yükdaşımaların sadələşdirilməsi, manеələrin aradan qaldırılması məsələlərini əhatə edəcək. Təkliflərin biri də ondan ibarət ola bilər ki, tranzit maşınlar bir dövlətdə dezinfeksiya olunubsa və bütün proseslərdən keçibsə, qonşu dövlətdə yenidən dezinfeksiya edilməsin. Ola bilsin, may ayının ortalarında videokonfrans keçirək. Həmin videokonfransda TRACECA-ya daxil olan 13 dövlətin milli katibləri iştirak edəcək. Hazırladığımız təklifləri videokonfransda səsləndirəcəyik. Təkliflər digər dövlətlər tərəfindən qəbul olunandan sonra tövsiyə olaraq bütün dövlətlərə paylanacaq. Çünki bu pandemiyanın hələ yaxın həftələrdə bitəcəyini hiss etmirik".

Xatırladaq ki, TRACECA Proqramı Cənubi Qafqaz və Mərkəzi Asiya dövlətlərinin nəqliyyat infrastrukturunun bərpasına yardım göstərilməsi, Avropa və Asiyanı birləşdirən ən qısa nəqliyyat dəhlizinin yaradılması və bununla regionun Qərbə inteqrasiyası, həmçinin bu dövlətlərin iqtisadiyyatlarının dirçəldilməsinə və inkişafına yönəldilmiş Avropa İttifaqı proqramlarının reallaşdırılmasına xidmət edən etibarlı nəqliyyat sisteminin qurulması məqsədini daşıyır. Bundan başqa, Azərbaycan Bakı-Tiflis-Qars dəmir yolu xəttinin potensialından da daha çox istifadə etməyi düşünür. "Azərbaycan Dəmir Yolları" QSC-nin Yükdaşımalar departamentinin rəisi Emil Əhmədov bildirir ki, hazırda bu dəmir yolu ilə əsasən Azərbaycan, Türkiyə, Türkmənistan, Özbəkistan, Qazaxıstan, Çin və bəzi Avropa ölkələrinin yükləri daşınır: "Pandemiya dövründə BTQ ilə yükdaşımalarda fasilə yaranmayıb. Məhsul çeşidləri əsasən metal məhsulları, sənaye məhsulları, ərzaq məhsulları, taxıl və taxıl məhsullarıdır. BTQ dəmir yolu vasitəsilə yükdaşımalar hər iki istiqamətdə əvvəlki qaydada davam etdirir". Özü də yükdaşımaların həcmi artır. Belə ki, BTQ xəttilə ötən ilin ilk 100 günündə 1 266 konteyner, 2020-ci ilin ilk 100 günündə isə 2 148 konteyner daşınıb. Digər tərəfdən, iqtisadi fəaliyyətini yenidən bərpa edən Çin bu xətlə daha çox yük daşınmasına hazırlaşır. Emil Əhmədov da bildirir ki, Çindən Avropaya və əks istiqamətdə konteynerlə yükdaşımalar davam edir və bu sahədə fasilə yaranmayıb. Onun sözlərinə görə, ötən aylarla müqayisədə gələcəkdə konteynerlərin sayında artım gözlənilir: "Bu il Çin hökuməti Sian şəhərindən 150 qatarın Orta Dəhlizlə Azərbaycan və Türkiyə üzərindən Avropaya hərəkət etməsini planlaşdırır".

Xatırladaq ki, "Azərbaycan Dəmir Yolları" QSC koronavirus infeksiyasının ölkə ərazisində geniş yayılmasının qarşısının almaq məqsədilə sanitariya-epidemioloji tədbirlərini gücləndirib. Ölkə ərazisinə daxil olan bütün yük qatarları insan əli dəymədən dezinfeksiya edilir. Proses həm qatarların üst hissəsini, həm də yüklər tam boşaldıldıqdan sonra daxili hissəsini əhatə edir. Bundan başqa, bütün lokomotivçilər xüsusi geyim, dezinfeksiya aparatı və məhlullarla təmin olunub. Onlar həmin aparat vasitəsilə lokomotivləri dezinfeksiya edirlər. Bu isə yükdaşımalardan Azərbaycana gələ biləcək mənfi təsirləri minimum endirir. "Şimal-Cənub", "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizlərinin tam işə düşməsi fonunda isə Azərbaycanın tranzit gəlirlərinin daha da artması gözlənilir. Bütün bunlar qeyri-neft sektorunun inkişafı istiqamətində Azərbaycana əlavə üstünlüklər qazandırır. Dünya bazarlarında enerji qiymətlərinin aşağı düşməsi fonunda bu, ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir.

***Ramil QULİYEV***

**İşsizlər üçün nəzərdə tutulan birdəfəlik ödəməni almaq məqsədilə elektron qaydada müraciət edənlərdən 19 min 600 şəxsin sahibkarlıqla məşğul olduqları müəyyən edilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin yaydığı məlumatda qeyd olunur.**

# Yardıma görə özünü işsiz kimi qələmə verən 20 min vətəndaşın fırıldağı açıldı

## Vahid Əhmədov: "Yalan informasiya verənlər mütləq cəzalandırılmalıdır"




Qeyd edilir ki, həmin şəxslərə birdəfəlik ödəmə verilməsindən imtina olunub: "Bu barədə onlara SMS göndərilib. Birdəfəlik ödəmə proqramı işsiz şəxslərə dəstək məqsədi daşıyır. Ona görə də bu kateqoriyaya aid olmayan, işi və qazancı olan şəxslərin birdəfəlik ödəmə proqramından faydalanmaq üçün elektron sistemə etdikləri müraciətlər təmin edilmir. Hazırda müraciətlərin emalı davam edir".

Birdəfəlik ödəmə ilə bağlı müraciət edənlərin bəzisinin işsiz olmaması məsələsi Prezident tərəfindən bir neçə gün öncə səsləndirildi. 20 minə yaxın şəxs işsiz kimi qeydiyyatdan keçib. Lakin araşdırmalar zamanı həmin şəxslərin işsiz olmaması müəyyən edilib.

Məsələ ilə bağlı fikir bildirən millət vəkili Vahid Əhmədov qeyd etdi ki, yalan informasiya verənlər mütləq cəzalandırılmalıdır: "Hər kəs öz müdirini, öz kreslosunu qorumaq üçün istənilən addımı atır. Biz işsizlərin sayının 5 faiz olduğunu deyiriksə, bəs bu gün müraciət edən işsizlərin sayı niyə çoxdur? Yalan informasiyalarla hara qədər getmək olar?! Düzgün məlumat vermək lazımdır ki, cənab Prezident mövcud vəziyyəti analiz edə bilsin. Bilsin ki, ölkədə həqiqi vəziyyət nə cürdür. Prezident təkdir, o hər şeylə tək-tək məşğul ola bilməz. Ona məlumatlar hökumət, nazirlər, icra hakimiyyətləri tərəfindən verilir. Koronavirus göstərdi ki, bəzi məlumatlar dövlət başçısına düzgün verilmir. Bu, yalnız işsizlərin sayı ilə bağlı deyil, problem digər sahələrdə də var. Hər məmur öz yerini qorumağın hayındadır".

*"İşsiz kimi qeydiyyatdan keçən şəxslərin işləyib-işləməməsi dəqiq araşdırılmalıdır"*

Millət vəkili onu da əlavə etdi ki, işsiz kimi qeydiyyatdan keçən şəxslərin işləyib-işləməməsi dəqiq araşdırılmalıdır.

***Günel CƏLİLOVA***

# Azərbaycanda 333 min imkansızın hər birinə 222 manat yardım - sayda 14 faiz artım var

**Azərbaycan dövlətinin həyata keçirdiyi sosial qayğı siyasətinin ardıcıllığı, davamlılığı, qayğıya ehtiyacı olan həssas qruplara xüsusi diqqəti vətəndaşların sosial rifahı, maddi durumu və güzəranının müsbət dinamikada inkişafına yönəlib.**

*"Dövlət tərəfindən ünvanlı sosial yardım verilməsinin əsas məqsədi cəmiyyətin sosial cəhətdən həssas qruplarının..."*

**Əhməd Qəşəmoğlu:** *"Hesab edirəm ki, hər ailəyə 222 manat sosial yardım göstərilməsi o insanların maddi rifah halının yüksəlməsinə müsbət təsir edəcək"*



Məlum olduğu kimi, cəmiyyətin həssas qruplarına dövlət, digər dövrlərdə olduğu kimi, pandemiya dövründə də qayğı və diqqətlə yanaşır.

Pandemiya dövründə cəmiyyətin sosial cəhətdən zəif olan təbəqəsinə maddi dəstəyin göstərilməsi nəticəsində aprel ayında dövlətdən sosial yardım alan ailələrin sayı 14 faiz artıb.

Məlumdur ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, ünvanlı sosial yardım proqramının icra mexanizminin sadələşdirilməsi və yardım təyinatı şərtlərinin yumşaldılması, aztəminatlı ailələrin bu proqramdan faydalanmaq imkanlarının artırılması təmin olunur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən mətbuata verilən məlumata görə, nəticədə ünvanlı dövlət sosial yardımı alan ailələrin sayı aprel ayında 14 faiz və ya 9500 ailə artaraq 79500-ə, yardım alan ailə üzvlərinin sayı isə 40 min nəfər artaraq 333 minə çatıb. Bildirilib ki, hər ailəyə düşən yardımın orta aylıq məbləği 222 manatı ötüb. "Sosial dəstək tədbirlərindən biri kimi, xüsusi karantin rejimi müddətində ünvanlı dövlət sosial yardımının təyin olunma müddəti bitən aztəminatlı ailələrə də bu yardımın verilməsi karantin rejimi başa çatdığı tarixdən sonrakı ayın 1-dək uzadılıb", - deyə məlumatda qeyd olunub.

İndiki şəraitdə bu, ailələr üçün nə deməkdir?

Tanınmış sosioloq Əhməd Qəşəmoğlu "Bakı-Xəbər"ə bildirdi ki, bu gün sosial cəhətdən zəif olan insanların ən böyük dayağı Azərbaycan dövləti və onun ayırdığı sosial yardımlar, göstərdiyi dəstəkdir.

Ə.Qəşəmoğlunun sözlərinə görə, keçən dövrlərdə sosial yardımların ayrılması sahəsində ciddi nöqsanlar olub, bu da həqiqətən ünvanlı sosial yardıma ehtiyacı olan xeyli sayda insanın kənarda qalmasına səbəb olub. Yeni dövrdə isə ünvanlı sosial yardımların tamamilə yeni mexanizmlə verildiyini və burada şəffaflığın qorunduğuna ümid etdiyini deyən Ə.Qəşəmoğlu hesab edir ki, bu gün dövlətin ayırdığı ünvanlı sosial yardımların ünvanına çatmasında, həqiqi ehtiyacı olana verilməsində bu sahə ilə məşğul olan məmurların rolu böyükdür. Onun fikrincə, ünvanlı sosial yardımı təyin edən məmurlar işlərinə məsuliyyətlə yanaşmalı, Prezidentin tapşırıqlarını, göstərişlərini məsuliyyətlə icra etməlidirlər.

Prezidentin cəmiyyətin həssas qruplarını ciddi diqqətdə saxladığını deyən Ə.Qəşəmoğlunun sözlərinə görə, bu da həmin təbəqənin həyatına müsbət təsir edir. "Hesab edirəm ki, hər ailəyə 222 manat sosial yardım göstərilməsi o insanların maddi rifah halının yüksəlməsinə müsbət təsir edəcək. Bilirsiniz ki, pandemiya dövründə vətəndaşlarımız dövlətdən ciddi sosial dəstək alırlar. Dövlət tərəfindən ünvanlı sosial yardım verilməsinin əsas məqsədi cəmiyyətin sosial cəhətdən həssas qruplarının maddi-rifah halının gücləndirilməsi, onların sosial müdafiəsinin təmin edilməsidir.

Bizim əsas məqsədimiz o olmalıdır ki, bu sosial yardımlar həqiqətən ehtiyacı olan adamlara, ailələrə verilsin. Burada ünvanlı sosial yardım təyin edən şəxslərdən çox şey asılıdır.

Amma inanıram ki, bu istiqamətdə işlər yaxı gedir, düzgün qurulub. Bilirsiniz ki, bu məsələ xüsusilə ölkə Prezidentinin nəzarəti altındadır. İndiki nazirin də çox çevik, çalışqan olduğu deyilir. Hər halda, hesab edirəm ki, ünvanlı sosial yardımların verilməsində şəffaflıq nəzərə alınıb".

Ə.Qəşəmoğlu onu da qeyd etdi ki, əvvəlki dövrlər bu sahədə baş verən neqativ halların təkrarlanmaması üçün bir ictimai nəzarət mexanizmi də işlənib hazırlanmalıdır.

*İradə SARIYEVA*

# Pandemiya ilə mübarizənin qaydaları Azərbaycanda ifrat toy və ya yas mərasimlərini birdəfəlik unutdura bilər

**Artıq iki aya yaxındır koronavirus pandemiyası ilə bağlı sosial təcrid şəraitində yaşamaq insanlarda müəyyən yeni vərdişlər formalaşdırır. Bəllidir ki, karantin rejimindən öncə insanlar ifrat formada keçirilən toy-nişan məclislərində iştirak etməkdən bezmişdilər.**



**Natiq Cəfərli:** *"Karantindən sonra dəm-dəsgahlı toy məclisləri xudmani məclislərlə əvəz olunmalıdır"*

Pandemiya dövründə insanların sağlamlığı üçün kütləvi mərasimlərin keçirilməsi qadağandır. İki aya yaxındır davam edən karantin dönəmində insanların kütləvi tədbirlərlə bağlı düşüncəsi dəyişdi. Artıq insanlar karantin bitəndən sonra təmtəraqlı toy məclislərində iştirak etmək istəmirlər. Ekspertlər də karantindən sonra ifrat toy məclislərinin ləğv olunmasının tərəfdarıdırlar.

İqtisadçı-ekspert Natiq Cəfərli hesab edir ki, karantindən sonra dəmdəsgahlı toy məclisləri xudmani məclislərlə əvəz olunmalıdır: "Koronavirusdan sonra həyat tərzimizi dəyişməliyik. Yaxşı olar ki, ifrat formada keçirilən toy adəti ləğv edilsin.

Vallah, israfçılıqdır, yazıq-günahdır, insanlar dəvətnamə alanda sevinməkdən dilxor olurlar, borc alıb toya gedirlər. Toylarda da səs-küy, ağız deyəni qulaq eşitmir, insanın başı ağrıyır, masalar üzərində tonlarla yemək zay olur - bütün bunlara son vermək lazımdır.

*"Koronavirusdan sonra həyat tərzimizi dəyişməliyik, yaxşı olar ki, ifrat formada keçirilən toy adəti ləğv edilsin"*

Bunun üçün "Toy amnistiyası"na ehtiyac var. Mən demirəm ki, toy olmasın, şənlik olmasın, mütləq olmalıdır, amma bizdəki kimi biabırçılıqla yox.

**Ailə quran gənclər özləri 50-100 nəfərarası yaxın dostları ilə əylənsinlər, desinlər, gülsünlər, mahnı oxusunlar, rəqs etsinlər, gələn qonaqlar da simvolik hədiyyələrlə yanaşı, "almansayağı" hesabı versinlər ki, (adambaşına 15-20 manat düşəcək) ailələr heç xərcə düşməsinlər. Belə olarsa, həm israfçılıq aradan qalxar, həm də müxtəlif növ viruslar yayılmaz".**

*Günel CƏLİLOVA*

№ 60 (4191) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

18-20 APREL 2020-ci il

www.baki-xeber.com



# 96 yaşlı kişi koronavirusa necə qalib gəldiyini açıqladı

**Türkiyənin Samsun şəhərində 96 yaşlı kişi koronavirusa necə qalib gəldiyini açıqlayıb. "Oxu.az" xəbər verir ki, Qasım Akyüz və 65 yaşlı oğlu Yusif Akyüzün koronavirus testlərinin nəticələri müsbət çıxıb.**

Xəstəxanada oğlu ilə müalicədən sonra evində 14 günlük karantində olan Qasım Akyüz xəstəliyə qalib gəlməsini belə izah edib: "Kənddə 65 yaşına qədər yaşamışam. Cavanlığımda həmişə tarlada işləmişəm, əkin sahələrində ot biçmişəm. Həmişə evdə hazırlanmış təzə qatıq, süd, qaymaq yemişəm. Təbii qidalar qəbul etmişəm. Buğda əkib istehsal etdiyimiz undan hazırlanan çörək yeyirəm. Erkən yatıb, erkən dururam. Heç siqaret çəkməmişəm. Heç vaxt çayxanaya getmək kimi vərdişim olmayıb. Nadir hallarda həkimə müraciət edirəm. Bu yaşa qədər əməliyyat keçirməmişəm. Özümə qulluq edirəm". Oğlu Yusuf Akyüz atası üçün narahat olmadığını qeyd edib: "Atam heç nədən narahat olmur. Bunu bizə də öyrədib. Xoşbəxt olmağa çalışır, özünü incitmək istəmir. İctimai bir insandır, insanlarla söhbət etməyi sevir. Türkiyə gündəmini izləyir, mütləq hər gün qəzet alır və oxuyur. Həmişə bizə "Yeməyə diqqət edin, vaxtında yeyin" deyir.

Onun dediklərini etməyə çalışırıq. Atamın xəstəliyə qalib gəlməsini immunitet sisteminin güclü olması ilə əlaqələndirirəm. Erkən diaqnoz və dərmanların təyin edilməsinin də təsirli olduğuna inanıram. Ailəmizdə doqquz nəfər koronavirusa görə xəstəxanaya yerləşdirilib, onlardan səkkizi sağalıb, birinin müalicəsi davam edir".

# Dahi Leonardo da Vinçinin sirli dünyası...

**Dünya mədəniyyəti tarixinə Leonardo da Vinçi rəssam kimi daxil olub.**

Onun sənət əsərləri dünya mədəniyyətinin ən qiymətli incilərindən hesab edilir. "AZƏRTAC" bildirir ki, italiyalı rəssam, heykəltəraş, memar, alim və mühəndis Leonardo da Vinçi 1452-ci il aprelin 15-də İtaliyanın Vinçi şəhəri yaxınlığında yerləşən kiçik Ankiano kəndində anadan olub. Leonardonun babası Antonio da Vinçinin öz gündəliyində bu barədə etdiyi qeyd belə səslənir: "Şənbə günü, 15 apreldə, gecə saat 3-də nəvəm - oğlum Pyeronun oğlu anadan oldu. Uşağa Leonardo adı verildi. Onu Pyero di Bartolomeo xaç suyuna çəkdi". Leonardo varlı notarius Pyeronun və Katerina adlı gözəl bir qadının nikahdankənar oğlu idi. Bu hadisədən az sonra notarius nüfuzlu ailənin qızı ilə evlənir. Onların övladları olmur və Pyero həyat yoldaşı ilə birgə 3 yaşlı Leonardonu oğulluğa götürür. Çox keçmədən ailə Florensiyaya köçür və atası oğlanı məşhur usta Andrea del Verokkonun yanına şagird qoyur. Gənc Leonardo emalatxanada rəsm və heykəltəraşlıqdan başqa mexanika və riyaziyyatın əsaslarını, anatomiyanı, metal və gipslə işləmə texnikasını, dəri aşılama üsullarını öyrənmə imkanı qazanır. Sonradan o, əldə etdiyi biliklərdən öz fəaliyyətində uğurla istifadə edir. Emalatxanada usta köməkçisi olan Leonardo rəssamlıq və heykəltəraşlıq sənətini dərindən öyrənir və bu sənət sahəsində istifadə olunan alətlərlə tanış olur. 20 yaşına çatanda Leonardo da Vinçi Rəssamların Florentina Qildiyasının üzvü olur. Elə həmin dövrlərdə öz müəllimi Verokkonun "Məsihin xaç suyuna salınması" işinə öz töhfəsini verir. Müasiri Vazarinin sözlərinə görə, rəsmin sol tərəfindəki ağbəniz mələyin simasını və mənzərənin bir hissəsini məhz gənc Leonardo çəkir. Tələbələr bəzən öz müəllimlərinin işlərinin bir hissəsini görürdülər və sonradan Leonardonun da ona kömək edən öz şagirdləri olur. "Məsihin xaç suyuna salınması" əsərində Leonardo öz istedadını və orijinallığını ortaya qoyur. O, həmin zamanlar İtaliyada yenilik olan yağlı boyaların tətbiq edərək işıq və rənglərdən istifadədə öz müəllimini üstələyir. İntibah dövründə rəsm əsərlərinin əksəriyyəti dini mövzuda çəkilib və ya portretlər olub. Mənzərələri isə yalnız belə rəsmlərin fonunda görmək olardı. Dahi rəssamın ilk rəsm əsəri qələmlə çəkilən "Arno vadisi" (1473) kənd mənzərəsidir. Leonardo da Vinçi tək dahi rəssam, heykəltəraş və memar deyil, həmçinin, riyaziyyat, mexanika, fizika, astronomiya, geologiya, botanika, insan və heyvan anatomiyası və fiziologiyası ilə məşğul olan böyük alim olub. O, həmçinin, ərazinin yaxşılaşdırılması üçün kanalların və şlüzlərin yaradılmasında iştirak edib və memarı layihələr hazırlayıb. 1480-ci ildə Leonardo artıq iri sifarişlər alırdı. Lakin 1482-ci ildə o, Milana köçməyə məcbur olur. Onun Milanda keçirdiyi dövr müxtəlif fəaliyyətlərlə zəngindir. Burada Leonardo bir neçə rəsm əsərini və dövrümüzə yarımdağılmış şəkildə çatan məşhur "Sonuncu şam yeməyi" freskasını çəkir. O bu kompozisiyanı Milanın Santa Mariya delle Qratsie monastrının yeməkxanasının divarına həkk edir. Rəssam həmişə öz rəsmlərini sol əli ilə, sağdan sola doğru imzalayıb. O hətta, eyni zamanda, iki əli ilə də yaza bilirdi. 1504-cü ildə Leonardo özünün ən məşhur rəsmi "Mona Liza" əsərinin - florentinalı tacir Françesko del Cokondonun həyat yoldaşı Liza Cerardininin portreti üzərində işləməyə başlayır. Mona Lizanın dodaqlarında onun simasına sirr və ecazkarlıq verən və çətin nəzərə çarpan gülüş sezilir. Bu əsər Fransanın Luvr Milli Muzeyində saxlanılır və indiyə qədər də dünyanın hər yerindən dahi Leonardo da Vinçinin məşhur "Cokondasına" baxmaq üçün gələn turistlərin diqqətini cəlb edir. Leonardo da Vinçinin təxminən 7 min vərəq əl işi dövrümüzə qədər gəlib çatıb. Onların ən böyük toplulanı Parisdəki Fransa İnstitutunun kolleksiyasında, Milandakı Ambroziana Kitabxanasında, Turində, Vindzorda və Madriddə saxlanır.

"Mona Liza", "Sincab ilə qadın", "Madonna Benua", "Sonuncu şam yeməyi", "Musiqiçinin portreti", "Məsihin xaç suyuna salınması" əsərləri onun ən məşhur rəsmlərindəndir. Leonardo da Vinçinin bir çox ideyası yalnız yüz illər sonra həyata keçirilib. Bunlara akvalanq, velosiped, paraşüt, xizək, fırlanan körpü, üçlüləli top, hava vinti və bir çox başqaları daxildir. İndiyə qədər də dahi rəssamın bir çox sirri insanlar üçün tapmaca olaraq qalır.





**Qoç** - Yaxınlarınızla münasibətləriniz sabitdir, ancaq təəssüf ki, ehtiyacınız olan şəfqəti onlardan ala bilmirsiniz. Bunu hiss edən bir şəxs yalançı diqqət və mərhəmət göstərərək sizi idarə etməyə çalışacaq.



**Buğa** - İşgüzar, enerjili, yeniliklərə açıqsınız. Gününüz çox maraqlı olacaq. Təəssüf ki, diqqət və ehtiyatlılığınızla seçilmirsiniz, odur ki, arzuolunmaz təmaslara, uğursuz sonluqla bitəcək şübhəli layihələrə qatılmağınız mümkündür.



**Əkizlər** - Romantik əhvalınız güclənib. Hətta evli, yaxud biriylə eşq yaşayanlar da təzə həvəsə düşürlər. Amma bugünkü həvəslər elə həvəs olaraq qalır, ciddi münasibətlərdən söz belə gedə bilməz.



**Xərçəng** - İş ortaqlarınızın bol-bol verdiyi vədlərə inanmayın: bu gün deyilən sözlərin reallıqla heç bir əlaqəsi yoxdur. Bu gün çox tez yorulur və gündəlik vəzifələrinizə daxil olmayan bir şey xahiş edəndə çox tez özünüzdən çıxırsınız.



**Şir** - Rahat və ahəngdar gündür. Uğurlar və qələbələr göydən tökülməsə də, zəhmətinizin qarşılığında ədalətli və vaxtında mükafatlandırılacaqsınız. Odur ki, həyatdan şikayətlənməyə tələsməyin.



**Qız** - Qəti qərar verməyə tələsməyin: aldığınız məlumatı sakit şəraitdə götür-qoy etməlisiniz. Enerjiniz çoxdur, intellektual və fiziki işlər sizə ağır gəlmir. Piç vərdişlərinizə qalib gələ bilərsiniz.



**Tərəzi** - Özlüyündə neytral gündür, ancaq bu gün baş verən hadisələrin yaxın gələcəkdə pis nəticələri ola bilər. Hətta çox sadə, yaxud uzun zamandan bəri nəzarətdə saxladığınız məsələlərdən söhbət gedirsə, burada da səhvlərdən qaçmaq çətin olacaq.



**Əqrəb** - Təmkin və özünənəzarət şəxsi münasibətlərinizdə ən yaxşı köməkçiləriniz olacaq. Neytral mövqeni qoruyub saxlamaq bacarığınız ailə üzvləri arasında yaranan münaqişələri yatırtmağa imkan verəcək.



**Oxatan** - Açıqlayacağınız ideyaları bir neçə gün götür-qoy edin: bunları daha gözəl təqdim edə, üstəlik, onlara böyük marağı təmin edə bilərsiniz. Sizdən ailə məsələlərinə, məişət problemlərinə daha ciddi yanaşmağınız tələb olunur.



**Oğlaq** - Ehtiyatlı olun. Sizə elə təkliflər edəcəklər ki, onlara yox demək çox çətin olacaq. İstiqrazlarla bağlı əməliyyatlar, bank krediti götürmək, yaxud dost və tanışlarınıza borcla əlaqədar müraciət etməyiniz məsləhət deyil.



**Dolça** - Gün xeyli sakit keçir. Öz bacarıq və istedadınızı parlaq şəkildə nümayiş etdirmək şansınız yoxdur, amma təəssüflənmirsiniz: ümumi atmosfer sakitdir, işgüzar aktivlik heç üfüqdə də görünmür, bir sözlə, razısınız.



**Balıqlar** - Pis gün deyil. Əlbəttə, bəzi çətinliklər yaranır, amma siz onlara müdrikcəsinə yanaşır və panikaya düşmürsünüz. Həmkarlarla mübahisələr, rəhbərliklə aranızda fikir ayrılıqları mümkündür.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Koronavirusdan sonra texnologiya insanları idarə edəcək?

**Texnologiyanın mərkəzi sayılan Çində koronavirusun meydana gəlməsini təsadüfi hesab etməyənlər çoxdur.**

Bu cür düşünənlərin əksəriyyəti sözügedən infeksiyanı dünyanı texnoloji cəhətdən idarə etmək üçün qəsdən hazırlanmış plan adlandırır. Bununla bağlı hazırlanmış animasiyaya əsasən, biri daimi müştərisi olduğu pitsa şirkətinə zəng edir.

Lakin şirkətin artıq "Google" tərəfindən idarə edildiyini öyrənir. Həmişəki kimi, sosisli pitsa sifariş vermək istəsə də, satıcı ona vegeterianlar üçün hazırlanmış növü təklif edir.

Müştəri bunun səbəbini soruşduqda, satıcı onda xolesterinin miqdarının normadan artıq olduğunu, sosisli pitsanın ona pis təsir edəcəyini deyir. Müştəri təəccüblə bunu necə bildiyini soruşur. Satıcı "Google" şirkətinin böyük məlumatlar bazasına sahib olduğu cavabını verir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.